With the support of the Erasmus+ Programme of the European Union

ᲙᲐᲣᲙᲐᲡᲘᲣᲡ ᲣᲜᲘᲕᲔᲠᲡᲘᲢᲔᲢᲘ
CAUCASUS UNIVERSITY

GÜRCÜSTANDA AVROPA ASSOSİATİVLİYİ PROSESİ

Tarix və Vətəndaş təhsili müəllimləri üçün köməkçi dərslik

QURANDA ÇELİDZE
EKATERINE KARDAVA
ZURAB BRAQVADZE

GÜRCÜSTANDA AVROPA ASSOSİATİVLİYİ PROSESİ

Tarix və Vətəndaş təhsili müəllimləri üçün köməkçi dərslik

Tbilisi 2020

Dərslik Qafqaz Universitetinin Avropa İttifaqının Erasmus + proqramlarının dəstəyi ilə Jan Mone layihəsinin “Avropasayağı tədris üçbucağı” – “Triangle Effect of European Studies at Schools” (TEESS) çərçivəsində işlənib hazırlanmışdır 611026-EPP-1-2019-1-GEEPPJMO-PROJECT

With the support of the Erasmus+ Programme of the European Union

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Qarşıdakı nəşr yalnız müəlliflərin fikrini əks etdirir və təqdim edilən məlumat üzrə Avropa İttifaqı məsuliyyət daşımır. Müəlliflərin tərzi mühafizə olunur.

Redaktorlar: Ekaterine Kardava
Quranda Çelidze

Tərcüməçi: Əhmədova Qızxanım

Cildləyən: Qiorqi Baqrationi

© Qafqaz Universiteti nəşriyyatı, 2020

ISBN: 978-9941-9702-7-6

MÜƏLLIFLƏR:

Quranda Çelidze – tarix elmləri doktoru, Qafqaz Universitetinin Humanitar və Sosial Elmlər məktəbinin afilə edilmiş professoru, Avropaşünaslıq bakalavr təhsil proqramının rəhbəri, "Avropasayağı tədris üçbucağı" Jan Mone layihəsinin (TEESS) həmmüəllifi, ekspert və koordinator, Avropa İttifaqının müxtəlif layihələrinin iştirakçısı, 40-a yaxın elmi əsərin müəllifi, o cümlədən, Avropa tarixi və Avropa İttifaqı məsələləri üzrə əsərlərin müəllifi, Avropa inteqrasiyası məsələləri üzrə təlimatçı.

Ekaterine Kardava – Hüquq elmləri doktoru, Qafqaz Universitetinin Hüquq məktəbinin assosiasiyalı professoru (afilə edilmiş); Qori Dövlət Təhsil Universitetinin professoru; "Assosiativ Sazişdə Avropa İttifaqını kəşf et" (EUEAA) Jan Mone modulunun müəllifi və koordinatoru, Jan Monenin professoru; "Avropa İttifaqının hüquqi siması" (LFEU)Jan Mone layihəsinin müəllifi və həmkoordinatoru; "Avropasayağı tədris üçbucağı" Jan Mone layihəsinin (TEESS) həmmüəllifi və eksperti; "Avropa vaxtı ilə" televiziya verilişinin həmmüəllifi və məzmun tərtibatçısı (Konrad Adenauer Fondunun dəstəyi ilə); "Avropa İttifaqı ədalət məhkəməsinin təcrübəsi və Gürcüstanın Əmək Qanunu" layihəsinin müəllifi və rəhbəri (Firdrix Ebert Fondunun dəstəyi ilə); "Avropa vaxtı ilə" Assosiasiyanın sədri.

Zurab Braqvadze – Qafqaz Universitetinin Humanitar və Sosial Elmlər Məktəbinin professoru; "Avropasayağı tədris üçbucağı" Jan Mone layihəsinin (TEESS), eksperti. Gürcüstanın qədim tarixi və arxeologiya məsələləri üzrə yüzə yaxın elmi əsərin və 5 monoqrafiyanın müəllifi; Avropa İttifaqı və Avropa Şurasının müxtəlif layihələrinin iştirakçısı və rəhbəri; Gürcüstanın Mədəni İrsinin Müdafiəsinin Milli Agentliyinin Arxeoloji Şurasının üzvü.

MÜNDƏRİCAT

Müəllifdən 7

Quranda Çelidze 9

"Avropalı" olmaq nə deməkdir 9

Avropa həyat qaydası 9

Avropa İttifaqının məqsədləri 10

Avropa İttifaqının dəyərləri 10

Avropa İttifaqının yaradılması 12

Avropa İttifaqına üzvlük şərtləri 18

Avropa İttifaqı və Gürcüstan münasibətlərinin xronologiyasından 19

Avropanın qonşuluq siyasəti (ENP) 21

Şərq Tərəfdaşlığı (EaP) 22

Ekaterine Kardava 25

Avropaya inteqrasiya seçimi – Gürcüstan tərəfindən rəsmən tanınmış və təsdiqlənmişdir 25

Gürcüstanın Post-sovet dövründə vəziyyəti və ehtiyacları və Avropa İttifaqı ilə tərəfdaşlığın əhəmiyyəti 29

Avropa İttifaqının yardımı ilə həyata keçirilmiş layihələrin məzmunu 30

Avropaya inteqrasiya prosesində yeni çağırışlar 32

Avropa İttifaqına üzv dövlətlərin birgə yaşayış intizamı 32

Avropa İttifaqının azad daxili bazarı 33

Assosiativ Saziş (AA)və dərin və hərtərəfli azad ticarət mərkəzi (DCFTA) 34

Avropa İttifaqının azadlıq, təhlükəsizlik və ədalət məkanı 36

Avropa İttifaqında dilə ehtiram 36

Avropa İttifaqında ailə və nikah 37

Avropa İttifaqının Gürcüstana yardımları 38

Əmək hüquqlarının müdafiəsinin Avropa standartları və Assosiativ Saziş 39

Avropa İttifaqının daxili bazarında gürcü məhsulu 40

Ərzağın zərərsizliyi və məhsulun təhlükəsizliyi – İnsan həyatı və sağlamlığının müdafiəsi 41

İstehlakçıların hüquqlarının müdafiəsi 43

Bərabərlik siyasəti və diskriminasiyaya qarşı mübarizə 43

Zurab Braqvadze 46

Avropa kontektsində Gürcüstanın mədəni irsi 46

MÜƏLLİFLƏRDƏN

Əziz oxucu, dəyərli müəllimlər,
o cümlədən şagirdlər və valideynlər

Biz inanırıq ki, seçim etdiyində, nəinki şəxsi gələcəyini qurursan, eləcə də başqalarının həyatına da təsir göstərirsən. Bu, cəmiyyətin formalaşmasında və inkişafında şəxsiyyətin qüvvəsidir. Kimi və nəyi seçdiyin nəticəyə də səbəb olur – sənin taleyinə, başqalarının taleyinə. Buna görə də, düzgün seçimdə məsuliyyət daşıyırsan. Seçim sənindir. Seçim azaddır. Biz isə biliyimizlə paylaşırıq və həqiqəti söyləyəcəyik ki, sənin seçimin reallığa, doğru məlumata, şəffaf obyektiv mühitlərə, faktlara, aydın məsələlərə və açıq rəqəmlərə əsaslansın.

Müasir Gürcüstanda irəliləyişin, inkişafın və düzgün seçimin əsaslarından biri Gürcüstanın hər bir vətəndaşının Avropa İttifaqının, Assosiativ Saziş və Gürcüstan-Avropa İttifaqı əlaqələrinin nə olduğunu bilməsidir. Bu məqsədlə, Qafqaz Universiteti Avropa İttifaqından Erasmus+ proqramının Jan Mone layihəsinin maliyyə dəstəyini qazanmış və Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi ilə əməkdaşlıq əsasında məktəb şagirdləri ilə dialoq prosesinə başlamışdır.

Avropaya inteqrasiya Gürcüstanın milli və həyat maraqlarının bir hissəsi, Gürcüstanın daxili siyasətinin predmeti, Gürcüstanın hər bir vətəndaşının dəyərli və mühafizə olunan məişətinə gələcəkdə sərmaye yatırımı prosesidir.

İnkişafın Avropa yolu Gürcüstan xalqının və Gürcüstan dövlətinin tarixi və dəyərlər seçimidir.

Quranda Çelidze
Ekaterine Kardava
Zurab Braqvadze

Qafqaz Universiteti (CU)
2020-ci il, Tbilisi

Quranda Çelidze

“AVROPALI” OLMAQ NƏ DEMƏKDİR

İnsanlar identikliyə meyllidirlər. Onlar müxtəlif istiqamətdə özlərini identikləşdirirlər, amma nadir hallarda daha yüksək və geniş səviyyədə identikləşməyə cəhd edirlər, nəinki bir region və ya bir ölkədə.

Bu anlayışla avropalı termini bənzərsiz hesab edilə bilər. Hal-hazırda Avropa İttifaqının vətəndaşlıq kontekstində “avropalı” və ya “avropasayağı” tez-tez istifadə edilir. Belə ki, Avropa təkcə coğrafiya deyil, Avropa - ideyadır. Avropa İttifaqı nə qitədir və nə də ki, ənənəvi milli dövlətdir. Əslində, təkcə iqtisadi alyans da deyil. O, Avropa dəyərlərinə əsaslanmış dövlətlərin ittifaqıdır və bu dəyərlər siyasi və həqiqi xarakterlidir.

AVROPA HƏYAT QAYDASI

Bir çox insanlar, o cümlədən avropalıların özləri, Avropa qitəsində yaşayan müxtəlif millətlərin bir təyinatda ümumiləşdirilməsi fikrini tənqid edirlər, amma müxtəlif mədəniyyətlər, dillər və tarix göz önündədir. Onlar demək olar ki, öz sübutlarından kənara çıxmırlar, amma onların nəticələri yenə də özünü doğrultmur, çünki Avropa İttifaqının devizi **“Birlik müxtəliflikdədir” (United in diversity)** bizə Avropa həyat qaydasının zəmini olaraq tanınmış dəyərə əsaslanmış təcrübə ilə birgə yaşamaq və əməkdaşlıq imkanını verir; hər kəs səsini çıxara, müxtəlif cəmiyyətin idarə edilməsində iştirak edə bilər, mümkün nəticələrdən qorxmur və ya bu nəticələrin təsiri başqa vətəndaşların hüquqları və azadlıqlarını məhdudlaşdırmır.

AVROPA İTTİFAQININ MƏQSƏDLƏRİ

- Avropa dəyərlərinin və öz vətəndaşlarının güzəranının inkişafına dəstəyin verilməsi;
- Sülhün, təhlükəsizliyin və ədalətin təmin edilməsi;
- Tarazlaşdırılmış iqtisadi artım və qiymət sabitliyi, yüksək rəqabətli bazar iqtisadiyyatı, məşğulluq və sosial tərəqqi, ekoloji problemlərin həlli yolu ilə cəmiyyətin davamlı inkişafının gücləndirilməsi;
- Sosial təcrid və ayrı-seçkiliyin hər hansı bir təzahürünə qarşı mübarizə aparmaq;
- Elmi- texniki tərəqqinin dəstəkləndirilməsi;
- Avropa İttifaqı ölkələri arasında iqtisadi, sosial, ərazi birliyi və həmrəyliyin inkişafı, gömrük sərhədləri olmadan bir-birlərinə maneələr yaratmamaq üçün daxili bazarın yaradılması;
- Zəngin mədəni və dil müxtəlifliyinə hörmət;
- İqtisadi və valyuta ittifaqının inkişafı və bir-birinin (ölkələrin) vahid valyuta ilə güclənməsi.

AVROPA İTTİFAQININ DƏYƏRLƏRİ

İnteqrasiyanın, təmkinin, ədalətin və həmrəyliyin hər şeydən üstün olduğu üzv ölkələr üçünAvropa İttifaqının dəyərləri ümumidir. Onlar ayrı-seçkiliyi rədd edirlər. Bu dəyərlər Avropa cəmiyyətinin ayrılmaz hissəsini təqdim edirlər.

İnsanın dəyəri

İnsan ləyaqəti toxunulmazdır. Ona hörmət etməli və qorumalıyıq. Ləyaqət əsas hüquqların əsl təməlini təqdim edir.

Azadlıq

Fərdi insan hüquqları – şəxsi həyat azadlığı, düşüncə, din sərbəstliyi, ifadə azadlığı - Avropa Birliyinin Təməli Hüquqlar Xartiyası ilə mühafizə olunur.

Hərəkət azadlığı vətəndaşlara Avropa İttifaqıçərçivəsində sərbəst hərəkət etmə və yaşamaq hüququ verir.

Demokratiya

Avropa İttifaqının fəaliyyəti təmsili demokratiyaya əsaslanır.

Avropa İttifaqının vətəndaşı olmaq siyasi hüquqlardan faydalanmaq deməkdir. Avropa İttifaqının bütün yetkin vətəndaşları seçkilərdə namizədliklərini irəli sürmək, yerləşdikləri ölkələrdə və ya mənsub olduqları ölkələrində səs vermək hüququna malikdirlər. Hökumət xalq tərəfindən seçilir və bu, ədalətli seçkilər yolu ilə əldə edilir və hökumətin xalq qarşısında öhdəlik və məsuliyyətlərinibildirir. Demokratiya eyni vaxtda sabitliyi, davamlı inkişafı və təhlükəsizliyi təmin edir.

Bərabərlik

Qanun qarşısında bərabərlik bütün vətəndaşlar üçün bərabər hüquqlar deməkdir. Qadınlar və kişilər arasında bərabərlik prinsipi Avropa siyasətinə əsaslanır və Avropaya inteqrasiyanın əsasını təşkil edir. Bütün sahələrə aiddir. Eyni iş üçün eyni ödəniş prinsipi 1957-ci ildə Roma müqaviləsinin bir hissəsi oldu.

Qanunun aliliyi

Avropa İttifaqı qanunun aliliyinə əsaslanır. Avropa İttifaqının bütün əməlləri Avropa İttifaqına üzv dövlətlərin könüllü və demokratik razılaşmalarına uyğundur. Qanun və ədalət müstəqil məhkəmə sistemi tərəfindən dəstəklənir. Avropa İttifaqı ölkələri yekun yurisdiksiyalarını Avropa İttifaqının Ədalət Məhkəməsinə keçirdilər ki, bunun qərarlarına hər kəs riayət etməli və hörmət etməlidirlər.

Avropaya inteqrasiya qanunun aliliyinə əsaslanan qaydanı bildirir, qanunun aliliyi isə xalq tərəfindən seçilən hökumətin qəbul etdiyi qanunlara sözsüz riayət edilməsi və bu qanunların vətəndaş cəmiyyəti tərəfindən həyata keçirilməsinin səmərəliliyinin yoxlanılması/monitorinqi deməkdir.

İnsan hüquqları

Avropa ideyası insan azadlığının və hamının bərabərliyinin alil-iyidir. İnsanın təbii hüquqları var. İnsan azad doğulur. Onun söz, ifadə, şəxsi azadlığı var. Dövlət öz hakimiyyətindən sui-istifadə etməməli, insan hüquqları və dövlətin təhlükəsizliyi arasında düzgün tarazlıq tapmalıdır.

İnsan hüquqları Avropa İttifaqının Təməli Hüquqlar Xartiyası ilə mühafizə olunur. Bu, cinsi, irqi və ya etnik mənsubiyyətindən, dinin və ya etiqadın, əlilliyin, yaş və ya cinsi meylin əsasında ayrı-seçkilikdən azadlığı, fərdi məlumatların qorunmasını və ya ədalətə çatma hüquqlarını əhatə edir.

2012-ci ildə Avropada sülh, barışıq, demokratiya və insan hüquqlarının müdafiəsi işində göstərdiyi xidmətlərə görəAvropa İttifaqına Nobel mükafatı verildi.

Avropa İttifaqının dəyərlərinin inkişafını, onun məsələlərinin icrasını, vətəndaşlarının və üzv ölkələrinin maraqlarının müdafiəsini, siyasətin effektivliyini və davamlılığını Avropa İttifaqının siyasi qurumları təmin edirlər.

Hər bir qurum hakimiyyətin bölgü prinsipinə riayət etməklə, öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərir. Avropa İttifaqının siyasi qurumlarıdır: Avropa komissiyası, Avropa Parlamenti, Avropa Şurası, Avropa İttifaqının (Nazirlər) Şurası, Avropa Ədalət Məhkəməsi, Avropa Mərkəzi Bankı, Auditorlar Məhkəməsi.

AVROPA İTTİFAQININ YARADILMASI

Avropa dövlətlərinin tarixini yalnız açıq rənglərlə boyasaq, doğru olmarıq. Əsrlər bizə Avropa dövlətləri arasında qarşıdurmaların və müharibələrin bir çox səhifələrini qoruyub saxlamışdır. Amma İkinci Dünya müharibəsinin sonunu və və tarix dərslərini dərk etdikdən sonra, Vahid Avropa böyük ailəsi yarandı. Avropa dövlətləri nəzərə alırdılar ki, onlar Avropa qitəsində uzun müddət birlikdə yaşayırlar, Avropa dilləri bir-birinə yaxındır, Avropa ənənələri və qaydaları başlanğıcını bir kökdən götürür, Avropanın bir ölkəsində yaşayan insan mənşə ilə ikinci Avropa ölkəsindən ola bilər. Belə ki, Avropa inteqra-

siyasının təməli əsasını, əlbəttə ki, Avropa xalqlarının sosial-mədəni yaxınlığı təşkil edirdi və edir də. Orta əsrlərin Avropasından bəri bu məkan xristianlıq dinini və latın yazısını özündə birləşdirən mədəni birliyi təqdim edirdi. Müxtəlif xalqlar üçün Avropa vahid mərkəz idi, buradan da dünyaya Avropa dəyərləri yayılır. Avropalılar eyni şəkildə ədalətə, fikir azadlığına, bir-birinə hörmətlə yanaşmağa, tolerantlığa inanırlar. Avropalılar bu ölkələri və xalqları birləşdirən hər şeyi eyni şəkildə dəyərləndirirlər.

Avropa İttifaqı ideyası real siyasi məqsədə çevrilənə qədər, Avropa dövlətlərinin gələcək taleyi kmi, bu ideyanı Avropa filosofları və yazıçıları paylaşırdılar. Hələ XIX əsrdə məşhur fransız yazıçısı Viktor Hüqo humanizm ideyaları üzərində əsaslanmış "Avropa Birləşmiş Ştatları haqqında" danışırdı. XX əsrin 20-ci illərində Avstriyalı siyasətçi, Avropa İnteqrasiyasının birinci ideoloqlarından biri Riçard Kalergi sübut edirdi ki, Avropa birliyi yalnız Almaniya və Fransanın sıx siyasi əməkdaşlığı halında mümkün idi. Amma bu fikrin praktiki həyata keçirilməsi XX əsrin birinci yarısında baş verən iki dünya müharibəsi şərtlərində mümkünsüz idi.

1945-ci ildə, Avropa üçün İkinci Dünya Müharibəsinin ağır nəticələri – milyonlarla evsiz-eşiksiz insanlar, sadə qaçqınlar və işsizlər, Avropa iqtisadi geriliyinin zirvəsi onun siyasi əzikliyi ilə birlikdə dünya cəmiyyətinə göstərdi ki, Avropanın uçuq və infrastruktur cəhətdən pozulmuş iqtisadi bərpası yalnız dövlətlərin əməkdaşlığı ilə mümkün idi və bu da gələcəkdə ölkələr arasında qarşıdurmanın əmələgəlmə təhlükələrinin və yeni müharibələrin qarşısını ala bilərdi. İllər ərzində totalitarizmə qarşı mübarizə aparan insanlar hazır idilər ki, sonsuz nifrətə son qoyulsun və davamlı əmin-amanlıq üçün şərtlər yaradılsın. Bu dövrün tanınmış xadimlərinin pleyadası – Rober Şuman, Konrad Adenauer, Uinston Çerçil və başqaları Avropa xalqlarını səsləyirdilər ki, öz həyatlarında tarixin yeni vərəqini açsınlar. Qərbi Avropada ümumi maraqlara və anlaşmalara əsaslanmış yeni strukturlar yaradılmışdı, bunlar da bütün Avropa dövlətlərinin nizam-intizamının və bərabərliyin qarantı olacaqdı. Bizə çox maraqlıdır ki, Vahid Avropanın yaradılmasını Strasburqda yaşayan gürcü hüquqşünası

Mişel Musxeli (Mixeil Musxelişvili) dəstəkləyirdi. O hesab edirdi ki, birləşməklə Avropa ölkələri güclənəcəkdilər və bu da Birliyə daxil olan dövlətlərin suverenliyinə mane olmayacaq və zəiflətməyəcəkdi.

Avropa dövlətlərinin Birliyinin çağırışlarının ardınca Böyük Britaniya baş naziri Uinston Çerçil tərəfindən 1946-cı ilin sentyabrın 19-da, İsveçrədə, Sürix Universitetində çıxış etdikdə Birləşmiş Avropa ideyası səsləndirildi: "Biz Avropa ailəsini regional strukturla yenidən yaratmalıyıq və bunu da Avropa Birləşmiş Ştatları adlandırmaq olar".

Böyük Britaniya ideyasını Amerika Birləşmiş Ştatları dəstəklədi. 1947-ci ildə ABŞ Avropanın dağıdılmış iqtisadiyyatını bərpa etmək üçün "Marşal planını" təsdiq etdi. Bu plan Avropa dövlətlərini əməkdaşlığa tərəf səsləyirdi. Fransanın mövqeyi çox böyük əhəmiyyət kəsb edirdi, – keçmiş rəqibi olan Almaniya ilə əməkdaşlığı nə dərəcədə arzulayardı. Halbuki Avropa inteqrasiyası prosesində həlledici rolu məhz Fransanın mövqeyi oynadı. Avropa inteqrasiyasının hesab nöqtəsi kimi 1950-ci ilin mayın 9-u hesab olunur, çünki bu zaman fransız siyasətçisi Jan Mone tərəfindən irəli sürülmüş təklifi rəsmi olaraq Fransa xarici işlər naziri Rober Şuman səsləndirdi. Söhbət Qərbi Avropanın daş kömür və metal sənayelərinin birləşməsindən gedirdi. Jan Monenin təşəbbüsünə əsasən, tarixi rəqiblər – Fransa və Almaniya başqa Avropa ölkələri ilə birləşməli idilər ki, daş kömürü və metalı müstəqil olaraq istehsal etməsinlər. Jan Monenin bu təklifi həmin fikrə əsaslanırdı ki, istənilən ölkəyə müharibə aparmaq üçün metal gərək idi, çünki mübarizə materialı metaldan hazırlanırdı və daş kömürdən – zavodların və dəmiryolunun enerji ilə təmin edilməsi üçün. Məhz bu olduqca əhəmiyyətli resursların istehsalı və satışının ümummilli orqana ("Ali hakimiyyətə") tabe edilməsi başlıca məqsədə qulluq edəcəkdi – Almaniyanın və Fransanın birlikdə sülh şərtlərində yaşayışına və bu da iki ölkənin iqtisadi və siyasi qarşılıqlı münasibətlərini dərinləşdirəcəkdi. Qeyd edilən hal Belçikanı, İtaliyanı, Lüksemburqu və Niderlandları da inandırdı və 1951-ci ildə "Avropa Daş Kömür və Metal Birliyi" yaradıldı. Milli müstəqil idarə etmə orqanı və onun tarazlayıcı orqanları yaradıldı – üzv ölkələrin nazirlər şurası, parlamentlərin nümayəndələrindən ibarət parlament assambleyası, ədalət məhkəmə-

si. Zamanla dövlətlər arasında əməkdaşlıq, irəliləyiş münasibətlərin müxtəlif sahələrində təsdiq etdi ki, “Avropa Daş Kömür və Metal Birliyinin” yaradılması düzgün atılmış addım idi. 1957-ci ildə əməkdaşlıq atom energetik sahəsində də genişləndi – Avropa Atom Enerji Birliyi yaradıldı. Bununla yanaşı, bu ölkələr 1957-ci ildə bütöv iqtisadi sistemin yaxınlığı müqaviləsinə imza atdılar. “Avropanın iqtisadi birliyinin” məqsədi Avropanın ümumi bazarının yaradılması idi ki, birliyə daxil olan ölkələrin ticarət sahəsində əməkdaşlığı sadələşdirilsin. Bir ölkədən ikinciyə yükün daşınıldığında yaranmış problemlərə aid olan çətinliklərin aradan qaldırılması nəzərdə tutulurdu – sərhəddə yükün dayandırılması və ya b.a. gömrük rüsumlarının ödənilməsi. Malın, işçilərin, xidmətin və kapitalın azad yerdəyişməsi nöqteyi-nəzərindən bütün məhdudiyyətlər aradan götürülməli idi. Milli hökumətlərin təmsilçi orqanı yaradıldı – Nazirlər Şurası. Əvvəllər yaradılmış parlament assambleyası və ədalət məhkəməsi genişləndi.

Avropa İttifaqı üzv dövlətlərə dinc münasibətlər imkanını verdi. Bu onu bildirmir ki, fikirlər müxtəlifliyi yoxdur, amma ümumi ideya və firavanlıq çərçivəsində hər bir dövlət dialoqa və danışıqlar yoluna müraciət edir. Ümumi bazarın yaradıldığından bir az sonra “Avropa İqtisadi Birliyinin” əhalisi yaşayış şərtlərinin yaxşılaşdığını hiss etdi. “Avropa İqtisadi Birliyinin” ölkələri birlikdə Avropada mövcud problemin həllinə qayğı göstərir, İttifaqa daxil olan nisbətən aşağı inkişaflı ölkələrə yardım edirdilər. Avropa daxilində insanların azad yerdəyişməsi üçün səyahət və yaşayış məqsədlərində hər cür şərait yaradıldı. Bütün bunlar isə İttifaqın daxilində başqa ölkələrin də üzvlüyünə səbəb oldu. Zamanla 1973-cü ildən 2013-cü il daxil olmaqla Avropa İttifaqına Böyük Britaniya, Danimarka və İrlandiya (1973), Yunanıstan, Portuqaliya və İspaniya (1986), Avstriya, Finlandiya və İsveç (1995) kimi ölkələr üzv oldular. “Soyuq müharibə” başa çatdıqdan sonra Şərqi və Mərkəzi Avropa dövlətlərinin taleyi xüsusilə maraqlı oldu, çünki Berlin divarı uçuruldu və “Dəmir pərdə” söküldü və Avropa İttifaqına üzv olmaqla kommunist-totalitar keçmişə üstün gəlindi. Belə bir dövlətlər bütün Avropaya təmsilçi demokratiya və azadlığı, rəqabətcil bazar iqtisadiyyatının inkişafı imkanlarını, insan

hüquqlarına hörmət göstərmək qabiliyyətini göstərə bildilər. Bütün bunlar onların Avropa İttifaqına üzvlükləri üçün şərtsiz bir əsas verirdi. 2004-cü ildə İttifaqa Estoniya, Litva, Latviya, Polşa, Slovakiya, Sloveniya, Macarıstan və Çexiya Respublikası üzv oldu, 2007-ci ildə Rumıniya və Bolqarıstan, 2013-cü ildə isə Xorvatiya. Avropa dəyərləri ilə başqa ölkələrin yaxınlıq prosesi də başladı. Onlar üçün nümunəvi Avropa İttifaqının daxilində mövcud problemlərin həlli məsələsi oldu:

1. Çətin regionlar üçün yardım, hansında kifayət qədər iş yerləri yoxdur/ mühit şərtləri təsərrüfatın inkişafı proseslərinə mane olur / bəzi yerlərdə kommunikasiya vasitələrinin az inkişaf etmiş infrastrukturuna görə ticarət münasibətləri mürəkkəbləşmişdir.

2. Yoxsul ölkələrə yardım – qeyd edilən istiqamətdə iş dünya miqyası ilə mövcud qarşıdurmaların, təbii kataklizmlərin, epidemiyaların nəticəsində aşağı həyat səviyyəsinə malik dövlətlər üçün yardıma aiddir, müxtəlif, məsələn, təhsil və tibb sahələrində. Bununla yanaşı, Avropa İttifaqı dövlətləri yoxsul ölkələrdə istehsal edilən məhsulu gömrük ödənişi xaricində əldə edəcəkdilər.

3. Yeni iş yerlərinin yaradılmasına qayğı göstərilməsi – Avropa İttifaqı hər zaman yeni iş yerlərini, daha yaxşı iş şərtlərini yaradır, insanlara yeni biznes qurmaqda yardım edir. Müvafiq olaraq, lazımi kvalifikasiyaya malik kadrların ixtisaslaşması üçün pul xərcləyir.

4. Ətraf mühitin müdafiə problemlərinin həlli ayrıca götürülmüş hər hansı bir ölkə üçün qeyri-mümkündür. İqlim dəyişikliyi və ekoloji problemləri Avropa İttifaqı üzv-dövlətlər arasında razılaşmalarla və başqa ölkələrin aktiv cəlb olunması ilə həll etməyə çalışır.

5. Avropada mövcud ümumi problemlərin həllini üzv dövlətlər üçün qəbul edilmiş ümumi valyuta – Avro asanlaşdırdı.

6. Vahid pul vahidi ilə faydalanma Avropa İttifaqı ərazisində

səyahəti, biznesin aparılmasını sadələşdirdi və ticarət dövriyyəsini artırdı. Və sonda, Avropa İttifaqında yaşayan insanın hüququ var ki, istədiyi üzv-ölkədə oxusun və ya işləsin. Avropa İttifaqının bir ölkəsindən ikinci ölkəsinə yerdəyişmə maksimal şəkildə sadələşdirilib. Tələbələr üçün təhsil prosesi Avropa İttifaqının üzv-dövlətləri çərçivəsində aktiv şəkildə dəstəkləndirilir.

Avropa İttifaqına üzv olmaqla yeni üzv-dövlətlər bazar birliyini dərinləşdirə bildilər. Ardıcıl və mərhələlərlə malın, xidmətin, işçi qüvvənin və kapitalın azad hərəkəti üçün mane olan hər cür müqavimət dəf olunur. Hal-hazırda dövlətər arasında yerdəyişmə ölkələrin daxilində olduğu kimi, sərbəstdir. Buna görə də Avropa İttifaqının bazarı bu gün artıq ümumi bazar deyil, eləcə də daxili bazar adı ilə tanınır. Təşkilatın adı da dəyişdi. 1993-cü ildən "Avropa İqtisadi Birliyini" "Avropa İttifaqı" əvəz etdi, çünki iqtisadi ilə yanaşı, həm də siyasi ittifaqdır. Ölkələr asayişinqorunması, təhlükəsizlik və xarici münasibətlər məsələlərində əməkdaşlıq edirlər. Yavaş-yavaş ittifaqın strukturu, qərarların qəbul edilməsi qaydaları və prosedurları təkmilləşdirildi. Avropa Parlamentinin rolu və səlahiyyəti böyüdü. O, məşvərət orqanından qanunvericilik orqanına çevrilərək Avropa İttifaqının büdcəsini təsdiq edir və Avropa Komissiyasının fəaliyyətinə nəzarət edir. Avropa Parlamentinin komplektləşmə qaydasını dəyişdi. Əgər əvvəllər onda milli parlamentlərin nümayəndələri toplaşırdılarsa, bu dəfə onlar birbaşa qaydada, Avropa dövlətlərinin vətəndaşları tərəfindən seçilirlər. Amma yaxşılıqlarla birlikdə, müəyyən problemlər də mövcuddur. 2015-ci ildə dünyada Suriya müharibəsi şəklində cərəyan edən hadisələr qaçqınların axınını artırdı və bunun nəticəsi də Böyük Britaniyanın Avropa İttifaqından çıxması haqqında qərarı oldu. Avropa İttifaqının üzv dövləti tərəfindən tərk etmənin birinci halına baxmayaraq, Avropa dövlətlərinin sıx əməkdaşlığının alternativi yoxdur, çünki yalnız birgə yaşayış və əməkdaşlıq onda sülhə, təhlükəsizliyə, iqtisadi inkişafa və vətəndaşların firavanlığına səbəb oldu.

AVROPA İTTIFAQINA ÜZVLÜK ŞƏRTLƏRI

Avropa İttifaqı haqqında müqavilənin 49-cu maddəsində göstərilmişdir ki, Avropa İttifaqına üzvlük haqqında ərizəni demokratiyaya, insan hüquqları və əsas azadlıqların müdafiəsinə, qanunun aliliyinə, azlıqların hüquqlarına hörmətlə yanaşan və dəstəkləyən Avropa dövlətləri daxil edə bilərlər.

Eləcə də ölkənin fəaliyyətdə olan bazar iqtisadiyyatı olmalı və Avropanın daxili bazarında rəqabət qabiliyyətli olmalıdır

1993-cü ildə, Avropa Şurası Kopenhagen zirvə görüşündə Şərqi və Mərkəzi Avropa ölkələrinin növbəti üç kriteriyə cavab verdikləri halda, Avropa İttifaqına birləşmək hüququnu tanıdı:

Siyasi – *ölkələrin sabit qurumları var. Onlar demokratiya, qanunun aliliyi və insan hüquqları, azlıqlara hörmət üzrə məsuliyyət daşıyırlar. Avropa İttifaqına üzv olmaq istəyən ölkənin üzvlük haqqında dialoqa başlaması üçün o, mütləq birinci kriterini qane etməlidir.*

İqtisadi – *ölkələrdə bazar iqtisadiyyatı inkişaf edir və bazar iqtisadiyyatı üçün xarakterik olan rəqabətcil mühitlə və başqa çağırışlarla ayaqlaşa bilərlər.*

Hüquqi – *ölkələr üçün Avropa İttifaqında təsis edilmiş qanunlar və hüquqi təcrübə qəbul ediləndir.*

Yuxarıda qeyd edilən kriterilərlə yanaşı, ***coğrafi*** kriteri xüsusilə qeyd edilməlidir, çünki 1992-ci ilin Maastrixt müqaviləsinə əsasən, hər hansı bir Avropa ölkəsi Avropa İttifaqının demokratik dəyərlərinə hörmətlə yanaşırsa və onların populyarizasiyası-implementasiyası üçün hazırdırsa, bu halda Avropa İttifaqına üzvlük istəyini bəyan edə bilər. Bununla yanaşı, qeyri-Avropa ölkələri ilə yaxınlıq-qəbulla bağlı hər hansı bir dəqiqləşdirmə verilməmişdir.

AVROPA İTTİFAQI VƏ GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ XRONOLOGIYASINDAN

Ötən əsrin 90-cı illərindən, Sovet İttifaqının süqutundan və müstəqilliyin elan edildiyindən sonra ölkənin gələcək inkişafının Qərb siyasi kursunu açıq şəkildə ifadə edən dövlətlər arasında Gürcüstan da var.

Bəri başdan qeyd etmək lazımdır ki, Avropa İttifaqı Gürcüstanın Avropa İttifaqı ilə sıx münasibətlərə və əməkdaşlığa canatmasını dəstəkləyir. Avropa İttifaqı və Gürcüstan hökuməti razılığa gəlmişlər ki, Gürcüstanın siyasi assosiasiyasının daha da dərinləşməsi və Avropa İttifaqı ilə iqtisadi inteqrasiya istiqamətində birgə işi davam etdirsinlər. Avropa İttifaqı Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir, iqtisadi inkişaf və müasirləşmədə Gürcüstan dövlətinə yardım edir. Avropa İttifaqı Gürcüstanın təhlükəsizliyini və demokratik, iqtisadi inkişafını təmin edən bir təşkilatdır. Avropa İttifaqına üzvlük elə bir imkandır ki, bu da təhlükəsizliyi təmin edir, ərazi bütövlüyünü təsdiq edir və həyat standartlarını yüksəldir.

Gürcüstan-Avropa İttifaqı münasibətlərinin qısa xronologiyası:

- Avropa İttifaqı ilə ölkəmizin əlaqələri 1992-ci ildən başlanmışdır. Məhz bu vaxtdan etibarən yenicə müstəqillik əldə etmiş ölkələrin bazar iqtisadiyyatına keçid və demokratiyanın möhkəmlənməsi prosesinə Avropa İttifaqının TACIS texniki yardımı proqramı ilə dəstək verilmişdir. Avropa İttifaqının iqtisadi yardımının üç əsas istiqaməti ayrılırdı: maliyyə yardımı, humanitar yardım (ərzaq yardımı şəklində) və texniki yardım [1]
- 1996-cı ilin aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Gürcüstan arasında "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" (PCA) birinci beynəlxalq müqavilə imzalandı və bu da Gürcüstan-Avro-

1 Avropa İttifaqı-Gürcüstanın gələcək əlaqələri prosesində 2007-ci ildə TACIS-i Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (ENPI) əvəz etdi, bu sonuncunu da 2014-cü ildə Avropa Qonşuluq Aləti (ENI) dəyişdi. .

pa İttifaqı əlaqələrinin hüquqi əsasını təqdim edir. Qeyd edilən anlaşma Gürcüstan və Avropa İttifaqı arasında siyasi dialoqu nəzərdə tuturdu: Gürcüstanda demokratiya və bazar iqtisadiyyatının, tərəflər arasında ticarət və sərmayelərin, requlyativ, iqtisadi, sosial, maliyyə, elmi, texnoloji və mədəni əməksdaşlığın inkişafına dəstəyin verilməsi.

- Gürcüstan və Avropa İttifaqı arasında mövcud bir çox xronoloji əlamətlər arasında *Avropanın Qonşuluq Siyasəti (ENP) və Şərq Tərəfdaşlığı Təşəbbüsü (EaP)* diqqətəlayiqdir və Gürcüstan-Avropa İttifaqı əlaqələri məsələsində bir sıra nailiyyətlərə təkan verdi.
- 2004-ci ildə Gürcüstan Avropanın Qonşuluq Siyasətinin benefisiarı oldu.
- 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı, Avropa İttifaqı və Amerika Birləşmiş Ştatlarının yardımı və müdaxiləsi ilə hərbi əməllərin və hərəkətlərin coğrafi genişlənməsinin dayandırılması mümkün oldu.
- 2009-cu ildə Gürcüstan Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsünün iştirakçısı oldu (Azərbaycanla, Belarusiya ilə, Moldova ilə, Ermənistanla və Ukrayna ilə birlikdə).
- **2014-cü ildə Assosiativ Sazişə (AA) imza atıldı.** Həmin vaxtdan etibarən Gürcüstan və Avropa İttifaqı arasında siyasi assositavlik möhkəmlənir və **Dərin və Hərtərəfli Azad Ticarət Məkanının (DCFTA)** formalaşması üçün hərəkətə başlanılır.
- **2017-ci ildə Avropa İttifaqı Gürcüstan vətəndaşlarına imkan verdi ki, Şengen zonasına vizasız daxil olsunlar və sərbəst hərəkət etsinlər.**

AVROPA QONŞULUQ SIYASƏTI(ENP)

2003-ci ildən Avropa İttifaqının əsas məsələlərini Avropa İttifaqının tərəfdaşlarının dövlət və sosial sabitliyinin gücləndirilməsi təqdim edir. Avropa İttifaqı inkişaf və xeyirxah qonşuluq zonasını, b.a. "Yoldaşlar qurşağını" yaratdı. Aralıq dənizinin cənub sahili ölkələri, Rusiya və yenicə müstəqillik əldə etmiş dövlətlərlə Avropa İttifaqı əlaqələrinin növbəti inkişafının çərçivələrinin işlənib hazırlanması haqqında söhbət gedirdi. Bununla yanaşı, Avropa İttifaqı "qonşuluq təşəbbüsündə" iştirak edən ölkələrin Avropa İttifaqı ilə münasibətlərinin müxtəlif səviyyəsini nəzərdə tutur və Avropa İttifaqı özünün yeni qonşuluq siyasətini sözügedən ölkələrə qarşı differensiasiyalı yanaşma əsasında həyata keçirir. Avropa İttifaqının qonşuluq siyasəti qonşu ölkələrə qarşı xarici siyasətdir və bu da 2004-cü ildə Avropa İttifaqının genişlənməsi, genişlənmiş Avropa və yeni qonşular arasında yeni ayırıcı xətlərin qarşısının alınması və sabitliyin, təhlükəsizliyin və firavanlığın təmin edilməsi məqsədilə işlənib hazırlanmışdır. Avropanın qonşuluq siyasətinin təməli prinsipi ondan ibarətdir ki, daxili islahatların həyata keçirilməsində bərabər əməkdaşlıq üçün qonşulara yardım etsin.

Avropa qonşuluq siyasəti Avropa İttifaqının potensial üzvlük məsələsindən fərqlənir. Avropanın qonşuluq siyasəti genişlənmənin alternativini təqdim edir və Avropa İttifaqının qonşu ölkələri üçün üstün münasibətləri tənzim edir. Əməkdaşlıq növbəti sahələrdəümumi dəyərlər üzrəqarşılıqlı öhdəliklərin götürülməsinə əsaslanır: qanunun aliliyi, yaxşı idarəetmə, azlıqların hüquqları, yaxşı qonşuluq münasibətləri, bazar iqtisadiyyatı prinsipləri və sabit inkişaf. Avropa İttifaqı qonşu regionun tərəfdaşlarına yardım göstərir, əsasən də, Avropa Qonşuluq Alətinin (ENI) vasitəsilə, bununla da 2014-2020-ci illər üçün planlaşdırılmış tədbirlər 15 milyard avronu təşkil edir.

Avropa qonşuluq siyasəti Cənubi Qafqaz ölkələrində, o cümlədən Gürcüstanda, 2004-cü ildən yayılmağa başladı, 2003-cü ilin noyabrında baş vermiş Qızılgüllər İnqilabından sonra. Avropa Qonşuluq siyasətinin ölkəmizdə yayıldığından sonra Gürcüstan-Avropa İttifaqı arasında münasibətlər xassə baxımından yeni perspektiv qazandı. Avropa İttifaqı sadə əməkdaşlıq çərçivəsindən kənara çıxan və sıx iqtisadi və siyasi inteqrasiyaya keçən əsas münasibətləri təklif etdi.

Qonşuluq siyasəti çərçivəsində 2007-ci ildən Avropa qonşuluq siyasətinin aləti qüvvəyə mindi (ENPI) – maliyyə aləti. Bu da qonşuluq siyasətinin konkret maliyyə fəallıqları ilə dəstəyini nəzərdə tuturdu. 2007-ci ildə Avropanın qonşuluq siyasəti aləti çərçivəsində fəaliyyət planının əsas sahələrinin islahatları üçün Gürcüstana 24 milyon avro vəsait ayrıldı. 2008-ci il avqust müharibəsindən sonra Avropa qonşuluq siyasətinin münaqişələrlə bağlı paketindən Avropa komissiyası Gürcüstan üçün əlavə 500 milyon avro ayırdı və bunun da əsas hissəsi məcburi qaçqın şəxslərin dəstəkləndirilməsinə xərcləndi. 2011-ci ildən Avropanın yeni qonşuluq aləti qüvvəyə mindi (ENI – European Neighborhood Instrument) və Avropa İttifaqının sərhədlərindən şərqdə və cənubda yerləşən 16 tərəfdaş ölkəyə 2014-2020-ci illərdə yardım göstərirdi. Qeyd edilən alət Gürcüstanda 2015-ci ildən qüvvəyə mindi.

Tərəfdaş ölkələrin həvəsləndirilməsi məqsədilə, Avropa qonşuluq aləti differensiasiya metoduna və "daha çox üçün çox" prinsipinin tətbiqinə istinad edir: xüsusi diqqət qanunun aliliyi prinsipi üzərində real olaraq güclü və sabit demokratiyanı quran ölkələrə yönəlir. Avropa qonşuluq aləti Avropa İttifaqı ilə tərəfdaşlıq nöqteyi-nəzərindən ölkənin ambisiya səviyyəsini, demokratiyanın quruculuğu və islahatların həyata keçirilməsi tərəfindən razılaşdırılmış məqsədlərin yerinə yetirilməsində onun tərəqqisini əks etdirirdi.

ŞƏRQ TƏRƏFDAŞLIĞI (EaP)

„ŞərqTərəfdaşlığı" (Eastern Partnership - EaP) təşəbbüsü, Avropa İttifaqının Şərq qonşu ölkələri ilə (Azərbaycan, Belarusiya, Moldova, Gürcüstan, Ermənistan, Ukrayna) əməkdaşlığın yeni formatı kimi, 2009-cu ildən qüvvəyə mindi.

"Şərq Tərəfdaşlığı" Avropa İttifaqına üzvlük perspektivinin alternativi deyil. O, ikitərəfli və hərtərəfli əməkdaşlıq yolu ilə, tərəfdaş ölkələrin, o cümlədən Gürcüstanın Avropa İttifaqına inteqrasiya prosesinin dərinləşməsinə, ümumi dəyərlərin yayımlanmasına, regionda

təhlükəsizliyin gücləndirilməsinə və iqtisadi inkişafa dəstək verdi. Təşəbbüsün əsas məqsədi Avropa qonşuluq siyasətinin (ENP) həyata keçirilməsinə şərait yaratmaqdı, halbuki "Şərq Tərəfdaşlığı proqramı" daha uzağa getmiş və tərəfdaş ölkələrə Avropa İttifaqı ilə daha da yaxınlaşmaq məqsədilə konkret perspektivlər təklif etdi.

"Şərq Tərəfdaşlığı" ölkələrə tərəfdaş ölkələrdə mövcud siyasi və iqtisadi vəziyyətin, eləcə də islahatların tempi və nəticələrinin nəzərə alınması ilə imkanlardan maksimum istifadə etməyi təklif etdi.

"Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq ikitərəfli və hərtərəfli əməkdaşlıq formatında inkişaf edirdi. Belə bir münasibətin məqsədi birgə layihələrin həyata keçirilməsi yolu ilə regionda qarşıya qoyulan məqsədlərin əldə edilməsi idi. Avropa İttifaqı və hər bir tərəfdaş ölkə arasında ikitərəfli əməkdaşlıq həmin əməkdaşlığın gələcəkdə dərinləşdirilməsini nəzərdə tuturdu və bu da növbətilərdən ibarət idi: tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişə (PCA) nisbətən geniş sazişlərin – assosiativlik haqqında sazişin (Association Agreements) imzalanması yolu ilə yeni, daha dərin əlaqələrin formalaşmasına və hər bir tərəfdaş ölkənin Avropa İttifaqına yaxınlaşma meylinə cavab verirdi. Belə bir sazişlər öhdələrinə müvafiq səviyyədə vəzifələr götürməyə hazır olan,Avropa İttifaqı və tərəfdaş ölkələr arasında azad ticarət zonaları yaratmağa hazır olan ölkələrlə (Gürcüstan, Ukrayna, Moldova) imzalandı və bu da hər bir ölkə ilə imzalanmış ətraflı və hərtərəfli azad ticarət məkanının sazişlərinin əsasını qoydu (Deep and Comprehensive Free Trade Areas), assosiativlik haqqında sazişlərin tərkib hissəsi kimi; təhlükəsiz mühitdə vətəndaşların səfərbərliyinə dəstək verdi. Bu məqsədlə, Avropa İttifaqı, tərəfdaş öıkələrlə, o cümlədən Gürcüstanla viza rejiminin sadələşdirilməsi və readmissiya haqqında müqavilələr (Visa Facilitation and Readmission Agreements) imzaladı. Vizasız gediş-gəliş rejiminin təsis edilməsi üçün ardıcıl addımlar atıldı.

Avropa Komissiyası tərəfindən "Şərq Tərəfdaşlığının" həyata keçirilməsi məqsədilə, milyonlarla avro vəsait ayrıldı, Avropa Qonşuluq və Tərəfdaşlıq alətinin (ENPI) bir hissəsi kimi. Konkret əməkdaşlıq məsələləri dörd platformada düzüldü:

I platforma–demokratiya, yaxşı idarəetmə və sabitlik;

II platforma – iqtisadi inteqrasiya və Avropa İttifaqının siyasəti ilə uyğunluğun təmin edilməsi;

III platforma – enerji təhlükəsizliyi;

IV platforma – camaat arasında əlaqələr.

Gürcüstan Şərq Tərəfdaşlığı çərçivəsində qarşıya qoyulan məqsədlərə uğurla nail oldu, bu da sonralar Assosiativ Sazişdə və dərin və hərtərəfli ticarət məkanı haqqında müqavilənin praktiki gerçəkləşməsində geniş əksini tapdı. Bunu 2018-2019-cu illərdə müxtəlif təşkilatlar tərəfindən Gürcüstanda Avropa İttifaqına olan münasibətin və biliyin qiymətləndirilməsi haqqında keçirilən sorğu nəticələri təsdiq edirlər ki, bunlara əsasən də əhalinin böyük əksəriyyəti Gürcüstanın Avropa İttifaqına üzvlüyünü dəstəkləyir.

İstifadə olunan qaynaqlar:

www.europe.eu
www.europe-today.eu
www.op.europa.eu
www.eesc.europa.eu
www.consilium.europa.eu/media/44400/685-annex-5-d-georgia-factshee
https://ec.europa.eu/neighbourhood-enlargement/policy/conditions-membership_en
https://europarl.europa.eu/
http://old.infocenter.gov.ge/
https://netgazeti.ge/news/267661/
http://www.epfound.ge/wp-content/uploads/2019/09/EU-2019-Final-GE.pdf

Ekaterine Kardava

AVROPA İNTEQRASIYASININ SEÇİMİ-GÜRCÜSTAN TƏRƏFİNDƏN RƏSMƏN TANINMIŞ VƏ TƏSDİQLƏNMİŞ

Avropa İttifaqı Gürcüstanın müstəqilliyini və ərazi bütövlüyünü tanıyır. Gürcüstan üçün Avropa İttifaqı strateji tərəfdaşdır. Gürcüstan Avropa İttifaqının yardımlar proqramlarına cəlb olunmuşdur. Hər il Avropa İttifaqı Gürcüstana ən azı 100 milyon Avro miqdarında yardım göstərir. Eyni zamanda, Avropa İttifaqı tərəfindən yardımlar təkcə maliyyə dəstəyi ilə kifayətlənmir, eləcə də - siyasi, texniki, humanitar və s. yardımlar göstərilir.

1. Gürcüstan Konstitusiyasının 78-ci maddəsində qeyd edilir:

„Konstitusiya orqanları öz səlahiyyətləri çərçivəsində Avropa İttifaqı və Şimali Atlantika müqaviləsi təşkilatına Gürcüstanın tam inteqrasiyasını təmin etmək üçün bütün ölçüləri götürürlər".

2. Gürcüstanın 2019-2022-ci illər üzrə xarici siyasət strategiyası:

„2019-2022 illərdə Gürcüstanın siyasi strategiyası ölkənin xarici siyasətinin strateji məqsədlərini, məsələlərini və başlıca istiqamətlərini və onların həyata keçirmə yollarını və mexanizmlərini müəyyənləşdirir. Bu, Gürcüstanın xarici siyasətinin birinci strategiyasıdır və Gürcüstan hökuməti tərəfindən təsdiq edilmiş milli səviyyədə sənəddir".

„2-ci məqsəd: Avropa İttifaqına üzvlük"

"Gürcüstanın milli maraqları:

1. Suverenliyin və ərazi bütövlüyünün təmin edilməsi
2. Dövlət qurumlarının inkişafı və demokratiyanın təsdiqlənməsi
3. Milli təhlükəsizliyin effektiv sisteminin inkişafı
4. Milli birlik və vətəndaş razılığının möhkəmlənməsi

5. Avropaya və Avro-Atlantikaya inteqrasiya

6. İqtisadiyyatın sabit uzunmüddətli artımının təmin edilməsi
7. Enerji təhlükəsizliyinin təmin edilməsi
8. Regional sabitliyin təmin edilməsi
9. Gürcüstanın tranzit funksiyasının gücləndirilməsi
10. Gürcüstanın və regionun ekoloji təhlükəsizliyinin təmin edilməsi
11. Vətəndaş inteqrasiyası və milli-mədəni varlığın təmin edilməsi
12. Kibertəhlükəsizliyin möhkəmlənməsi
13. Demoqrafik təhlükəsizliyin təmin edilməsi
14. Diasporlarla əlaqə".

„Gürcüstanın təhlükəsizlik siyasətinin əsas istiqamətləri:

1. Gürcüstanın işğal olunmuş ərazilərinin işğaldan azad edilməsi və Rusiya Federasiyası ilə əlaqələr
2. Dövlət qurumlarının inkişafı və demokratiyanın möhkəmlənməsi
3. Cəlb olunma siyasətinin həyata keçirilməsi
4. Gürcüstanın müdafiə və təhlükəsizlik siseminin inkişafı
5. **Şimali Atlantika müqaviləsi təşkilatına üzvlük və Avropa İttifaqına inteqrasiya"**

... (və sairə).

3. „Avropa İttifaqı və NATO-ya Gürcüstanın üzvlük kommunikasiyası haqqında Gürcüstan hökumətinin strategiyasının 2017-2020 illər üçün təsdiqlənməsinə dair" Gürcüstan Hökumətinin 2017-ci il №765 sərəncamı:

„Əsas ismarıclar"

Gürcüstan Avropa İttifaqı və NATO-ya üzvlüklə bağlı məsələlər üzrə müvafiq ismarıclarının işlənib hazırlanmasını həm milli, eləcə də beynəlxalq səviyyədə həyata keçirir: ictimai fikrin tədqiqat nəticələri, hədəf qruplarının analizi, başlıca yanlış qavrama və cəmiyyətdə

mövcud informasiya qıtlığı, o cümlədən fəaliyyət planı məruzəsinin analizi əsasında.

Strateji kommunikasiya növbəti əsas ismarıcların əsasında həyata keçirilir:

Milli səviyyədə:

- Avropa İttifaqı və NATO-ya üzvlük prosesində davam edən, həyata keçirilən kompleksli və irimiqyaslı islahatlar Gürcüstanın dövlətçilik və müdafiə qabiliyyətini gücləndirir;
- Gürcüstanın Avropa İttifaqı və NATO-ya üzvlük prosesi ölkənin sürətli inkişafı üçün lazımi təhlükəsiz və rəqabətcil mühitin yaradılmasına dəstək verir;
- Gürcüstanın Avropa İttifaqı və NATO-ya üzvlük prosesi Gürcüstanda demokratik qurumların inkişafını, qanunun aliliyini, insan hüquqlarının, ümumi dəyərlərin və mədəni müxtəlifliyin mühafizəsini,vətəndaşların azad hərəkətini təmin edir;
- Gürcüstanın Avropa İttifaqı və NATO-ya üzvlük prosesi xarici sərmayelərin artımına, işsizliyin azalmasına və Gürcüstanın hər bir vətəndaşının həyat səviyyəsinin yaxşılaşdırılmasına dəstək verir.

Beynəlxalq səviyyədə:

- Gürcüstan, Avropa mədəniyyəti və dəyərlərinin daşıyıcısı kimi ən qədim xristian və gənc demokratik ölkə kimi, Avropa və Avropa-Atlantika təhlükəsizliyinin möhkəmlənməsində önəmli rol oynamışdır;
- Gürcüstan Avropa İttifaqı və NATO Şərq qonşuluğunda demokratik inkişafın bariz nümunəsini təqdim edir;
- Avropa İttifaqı və NATO-ya üzvlük Gürcüstanda demokratiyanın cəld konsolidasiyasına və regionda demokratik proseslərin inkişafına canatmalara dəstək verir;

- Gürcüstan etibarlı tərəfdaşdır, önəmli tranzit dəhlizini təqdim edir və bu da Avropanın enerji təhlükəsizliyinə dəstək verir.

4. Gürcüstan hökumətinin "2017-2021-ci illər üzrə Gürcüstanda Təhsilin və Elmin Vahid Strategiyasının təsdiqlənməsi haqqında" 2017-ci il №533 Sərəncamında qeyd edilir:

Təhsil sahəsində strategiya Avropa İttifaqının müvafiq siyasəti və təcrübəsi ilə yaxınlığa yönəlmişdir və bu da təhsilin keyfiyyətinin təmin edilməsi mexanizmlərinin həyata keçirilməsində Boloniya prosesi çərçivəsində işlənib hazırlanmış tövsiyələrin, o cümlədən ali təhsilin Avropa məkanının keyfiyyətinin təmin edilməsi standartlarının və rəhbər prinsiplərinin (ESG) tələblərinin nəzərə alınması ilə bağlıdır.... Eləcə də peşəkar təhsil və hazırlıq strategiya sənədi Gürcüstanın peşəkar təhsil sistemində Avropa kreditlər sisteminin (ECVET) mərhələli tətbiqini nəzərə alır.

2014-cü ilin iyunun 27-də imzalanmış Gürcüstan və Avropa İttifaqı arasında assosiativlik haqqında sazişin ayrı-ayrı başlıqları ilə Avropa İttifaqı ilə Gürcüstanın elm və təhsil sahəsində əməkdaşlıq müəyyən edildi. Xüsusilə də, Sazişin 12-ci fəsli tədqiqatın, texnologiyaların inkişafı və nümayişi sahəsində əməkdaşlığı nəzərdə tutur, 16-cı fəsildə təhsil, treninq və gəncik istiqamətində əməkdaşlıq mövzuları verilmişdir. Eləcə də Gürcüstanın təhsil-elm sahəsi üçün önəmli resursu Avropa İttifaqının tədqiqat və innovasiyalar proqramının "Horizont 2020"-nin 77 milyardlıq fondu təqdim edir və Gürcüstan da 2016-cı ildə ona üzv oldu və bunun çərçivəsində də, müsabiqə yolu ilə, Gürcüstan təşkilatları tərəfindən təqdim edilən 17 layihə artıq maliyyələşdirilmişdir, 5,2 milyon laridən artıq ümumi dəyəri ilə. Bununla belə, ödənilmiş üzvlük haqqının yarısı, elmin gələcək inkişafı məqsədilə, ölkəyə qayıdır.

Avropa İttifaqının ERASMUS+ proqramında və 131 tərəfdaş ölkələr arasında nailiyyətli layihələr baxımından Gürcüstan 8-ci yeri tutur. Nəticədə, 2015-ci ildən 1500-dən çox Gürcüstan vətəndaşlığı olan tələbələrin Avropanın aparıcı universitetlərində təhsil haqqı maliyyələşdirildi. 2016-cı ildə ERASMUS+mobil proqramlarında Gürcüstan

1465 təqaüd qazanmışdır. Kreditlərin mobillik proqramı ilə də 1333 təqaüd əldə edilmişdir. İHHŞ – Beynəlxalq Təhsil Mərkəzi tərəfindən dünyanın qabaqcıl universitetlərində 483 Gürcüstan vətəndaşı maliyyə dəstəyini qazandı.

GÜRCÜSTANIN VƏZİYYƏTİ VƏ EHTİYACLARI POST-SOVET DÖVRÜNDƏ VƏ AVROPA İTTİFAQI İLƏ TƏRƏFDAŞLIĞIN ƏHƏMİYYƏTİ

Son 30 il ərzində Gürcüstan müstəqillik üçün mübarizə aparmış və müstəqilliyi elan edildiyindən bəri bir neçə müharibə, silahlı münaqişə, siyasi və iqtisadi böhran keçirmişdir. Nəticədə, Abxaziya Muxtar Respublikası və Sxinvali regionu/Cənubi Osetiya Rusiya Federasiyası tərəfindən işğal edilmişdir. Gürcüstanın iqtisadiyyatı da zamanla önəmli mənfi təsirə məruz qalır. Düşmən silahla, dinc əhalini qırmaqla, torpaqları ələ keçirməklə, qan axıtmaqla, qüvvə nümayiş etdirməklə Gürcüstanın suverenliyini hər zaman zəiflədir, ərazi bütövlüyünə xələl yetirir, demokratik proseslərə mane olur, güzəranın yaxşılaşmasına, inkişafına, müstəqilliyinə, azadlığına mane olur; Rusiya Federasiyası tərəfindən bizim suveren məişətimizə müdaxilə nəticələri ağrılıdır: işsizlik, yoxsulluq və s. Gürcüstanın dünya xalqlarına və hər hansı bir dövlətlərə qarşı müstəqil, bütöv, sivil, açıq olmaq istəyinə görə, - qonşusu onunla mübarizə aparır.

Abxaziyada gürcülərin etnik təmizlənməsi beynəlxalq sənədlərlə tanınmışdır.

Belə bir məişətdə, tərəfdaşlıq və siyasi dostlar xaricində, Gürcüstan xilas olmaqda və layiqli dövlət həyatını davam etdirməkdə çətinlik çəkərdi. Müstəqilliyin elan edildiyi birinci gündən, kiçik Gürcüstanın yanında Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları (ABŞ) və başqa demokratik ölkələr kimi dünyanın böyük oyunçuları durdular. Onlar tərəfindən yardım siyasi, maliyyə, texniki, humanitar yardımı əhatə edir.

İnsanlar, təşkilatlar, dövlətlər arasında hər hansı bir əlaqə və razılaşma ümumi maraqların olmasına, qarşılıqlı hörmətə, qarşılıqlı mənfəətə, qarşılıqlı dəstəyə əsaslanır. Belə ki, Avropa İttifaqı və Gürcüstan arasında tərəfdaşlıq münasibətlərinə, o cümlədən Assosiativ Sazişin bağlanılmasına səbəb hər iki tərəf üçün faydalı məqsədlərin əldə edilməsi oldu. Bir tərəfdən, Avropa İttifaqı öz qonşuluğunda sülhü, sabitliyi, təhlükəsizliyi, eyni zamanda ticari-iqtisadi və siyasi əlaqələrin genişlənməsini arzu edirdi; digər tərəfdən isə, Gürcüstan post-sovet dövründə dövlətçiliyini gücləndirmək, müstəqilliyi və suverenliyi tam və səmərəli şəkildə təmin etmək, müharibə nəticələrini neytrallaşdırmaq, güclü ictimai və özəl sektoru formalaşdırmaq, biznesi, sənayeni və ticarəti genişləndirmək, sosial sabitliyi təmin etmək, təhsil keyfiyyətini gücləndirmək, insanın firavanlığı və inkişafı üçün yaxşı şərtləri yaratmaq istəyirdi. Sözügedən məqsədlərin əldə edilməsində Gürcüstan və Avropa İttifaqı bir-birinə yardım edirlər. Əlbəttə ki, yardımın həcmi, növləri və imkanları fərqlidir. Gürcüstan xüsusilə ciddi maliyyə və texniki resurslarla tərəfdaşlığa ehtiyac duyur ki, yeni tipdə demokratik və sivil dövlət qursun, infrastrukturu inkişaf etdirsin (nəqliyyat, yol, su, kanalizasiya və s.), sənaye sahəsində yeni texnologiyaları və innovasiyaları yaratsın və s.

AVROPA İTTİFAQININ YARDIMI İLƏ HƏYATA KEÇİRİLMİŞ LAYİHƏLƏRİN MƏZMUNU

24 ildən çoxdur ki, Avropa İttifaqı Gürcüstana ardıcıl, hər il yardım göstərir və bu yardım külli miqdarı təşkil edir. Avropa İttifaqının göstərdiyi yardımla, dəstəklə, maliyyə yardımı ilə Gürcüstanda müxtəlif müsbət layihələr həyata keçirildi:

- Məktəblərin inşası və təmiri;
- Yolların çəkilişi;
- Nəqliyyat sahəsinin yaxşılaşdırılması, o cümlədən abadlaşdırılmış ictimai nəqliyyatın sayının artırılması;

- Təhsil keyfiyyətinin yaxşılaşdırılması və Gürcüstan vətəndaşları üçün yeni imkanların verilməsi, o cümlədən xaricdə pulsuz təhsil, təqaüdlərin verilməsi və s.
- Etnik azlıqlara, qaçqınlara və ya köçkünlərə dəstək tədbirləri, "Diskriminasiyaya qarşı mübarizə haqqında" qanunun qəbul edilməsi və anti-diskriminativ mexanizmlərin yaradılması;
- Müxtəlif biznesin maliyyələşdirilməsi və gücləndirilməsi, o cümlədən kənd təsərrüfatı sahəsində;
- Dövlət servislərinin inkişafı (vahid pəncərə prinsipi ilə xidmət, ictimai səhiyyə, böhranların idarəetməsi və s.);
- Elm sahəsinin gücləndirilməsi;
- Əmək müfəttişliyinin mexanizminin formalaşdırılması və işçilərin təhlükəsizliyinin mühafizəsinin gücləndirilməsi;
- Gürcüstanın dünya və regional miqyaslı proqramlara, o cümlədən qaz və neft marşrutlarının diversifikasiya layihələrinə (Azərbaycan-Gürcüstan-Türkiyə sıx əməkdaşlığı ilə) cəlb olunması və inteqrasiyası;
- İş yerlərinin hazırlanmasına dəstəyin verilməsi;
- Gürcüstanın mədəni irsinin qorunub saxlanılması və ona qulluq;
- Prokurorların, hakimlərin, başqa peşə sahiblərinin hazırlığı-ixtisaslaşdırılması.
- Xaricdə olan şəxslərin Gürcüstana könüllü qayıdışına dəstəyin verilməsi.
- Və s.

Belə köməyə əsaslanaraq, Gürcüstan tamamilə yeni bir dövlət qura bildi. Gənc demokratik ölkəyə çevrildi, müharibələrin öhdəsindən gəldi, turizmi inkişaf etdirdi, Gürcüstan mədəniyyətini, təbii gözəlliyini və sərvətini, tarixi əzəmətini tanıtdı, məhsullar istehsal

etdi və dünyanın müxtəlif bazarlarına çıxartdı. Bir çox müharibələrə baxmayaraq, Gürcüstan cəsarətlə, inadla, fədakarlıqla ayağa qalxa bildi, öz seçiminə xəyanət etmədi və tərəfdaş ölkələrin dəstəyinə tamamilə sadiq qaldı.

AVROPA İNTEQRASİYASI PROSESİNDƏ YENİ ÇAĞIRIŞLAR

Müasir texnologiya və yenilik əsrində yeni bir müharibə forması meydana gəldi - informasiya müharibəsi, hibrid müharibə. Gürcüstanda Avropa İttifaqı haqqında yalan məlumatlar yayılmağa başladı. Silahlaala bilməyən düşmən yalan xəbərlərlə Gürcüstanla Avropa İttifaqı arasındakı münasibətləri pozmağa qərar verdi: Avropa İttifaqının Gürcüstan vətəndaşlarını dilimizi, mədəniyyətimizi, adətlərimizi, qayda-qanunlarımızı və s. əlimizdən alınmasına inandırmağa başladı. Gürcüstan hökuməti burada da dərhal hərəkətə keçərək yeni bir çağırışa qarşı müdriklik və humanizmlə strateji ünsiyyət proseslərinə başladı.

AVROPA İTTİFAQINA ÜZV DÖVLƏTLƏRİN BİRGƏ HƏYAT QAYDASI

Avropa İttifaqı, birlikdə qərarlar verən 27 Avropa dövlətinin birliyidir. Qəbul edilən qərarlar hər bir ölkənin maraqlarına cavab verir və hər kəs üçün faydalıdır. Avropa İttifaqının hər bir üzv dövlətinin öz dövlət dili, tarixi, mədəniyyəti, həyat tərzi, konstitusiyası, adət-ənənələri, adətləri var. Onların müstəqilliyi və fərdiliyi qorunur.

27 Avropa ölkəsi bir-birindən çox fərqlənir. Onlar keçmişdə bir-birləri ilə vuruşurdular və hətta düşmənçilik də edirdilər, amma konstruktiv güzəştlər və qarşılıqlı səmərəli birgə əməllər nəticəsində, sülh, firavanlıq, ədalət və təhlükəsizlik məkanını qura bildilər və hər hansı bir insan burada özünü mühafizədə hiss edə bilər.

AVROPA İTTİFAQININ AZAD DAXİLİ BAZARI

Avropa İttifaqında 27 Avropa ölkəsi ortaq azad daxili bazara sahibdir. Bu o deməkdir ki, bütün Avropa dövlətləri bir-birinə qarşı malların və xidmətlərin hərəkət sahəsində qoyulan məhdudiyyətləri ləğv etdilər. Keçmişdə hər bir dövlətin öz gömrük qanunvericiliyi, bir-birindən fərqli rüsumları, vergiləri, qaydaları var idi ki, bu da bir-biri arasında səmərəli ticarətə mane olurdu. Çox vaxt bu qaydalar ayrı-seçkilik və proteksionist idi. Nəhayət, Avropa İttifaqı ölkələri maneələrin və məhdudiyyətlərin aradan qaldırılması barədə razılığa gəldilər. Bir-birləri üçün ortaq və bərabər bir qayda təsis etdilər. Hal-hazırda biznes, iş adamı, hər hansı bir şəxsAvropa İttifaqının bir dövlətindən ikinci dövlətə malı sərbəst və leqal yolla keçirir, istehsal edir və satır. Avropa İttifaqının daxili bazarındakı bütün qaydalar hər bir dövlətə (böyük və ya kiçik), bütün hüquqi və fiziki şəxslərə qarşıeyni şəkildə tətbiq olunur. Bu, biznesin güclənməsinə, istehsalın inkişafına, ticarətin artmasına, daha çox iş yerlərinin açılmasına, insanlar üçün firavanlığın və və kapitalın çoxalmasına səbəb oldu.

Avropa İttifaqının daxili bazarı 500 milyonluq istehlakçı üçün sərbəst bazardır. Hal-hazırda, bütün dünya çalışır ki, öz istehsal nəticələrini (mal, xidmət) Avropa İttifaqının daxili bazarına çıxarıb satsın. Avropa İttifaqından xaricdə olan ölkələrə (üçüncü ölkələrə) Avropa İttifaqı ölkələri ilə ticarət məqsədilə ayrı-ayrı danışıqlar lazım gəlmir, çünki Avropa İttifaqına üzv ölkələrdə daxili bazarın vahid qaydaları qüvvədədir. Belə ki, üçüncü ölkələr bilavasitə Avropa İttifaqı ilə razılığa gələ bilər və onun hər hansı bir ölkəsinin malı və xidmətinin azad hərəkəti ilə faydalana bilərlər. Gürcüstan istər Fransaya, istərsə də Latviyaya malını daxil edərsə, hər yerdə bir gömrük qaydasına rast gəlinir. Bu amil Avropa İttifaqının daxili bazarını çox cazibədar və effektiv etmişdir. Daxili bazarın bu qaydada təşkilinə görə, Avropa İttifaqı ən böyük iqtisadiyyat hesab olunur.

Assosiativ Saziş və DCFTA çərçivəsində, Gürcüstan üçün Avropa İttifaqının daxili bazarı istiqamətində olduqca böyük imkanlar açılır.

ASSOSİATİVLİK SAZİŞİ (AA)VƏ DƏRİN VƏ HƏRTƏRƏFLİ AZAD TİCARƏT MƏKANI(DCFTA)

2014-cü ilin iyunun 27-də Gürcüstan və Avropa İttifaqı Assosiativ Sazişə imza atdılar. 2014-cü ilin iyulun 18-də Gürcüstan Assosiativ Sazişinin ratifikasiyasını həyata keçirdi. Assosiativ Saziş müvəqqəti tətbiq rejimi qüvvəsi ilə 2014-cü ilin sentyabrın 1-də qüvvəyə mindi, tam qüvvəyə isə 2016-cı ilin iyulun 1-dən etibarən mindi.

2014-cü ildə Assosiativ Sazişi bağlamaqla, Gürcüstan və Avropa İttifaqı arasında dərinləşdirilmiş əlaqələr dövrü başladı – siyasi assosiativlik və iqtisadi inteqrasiya, o cümlədən, dərin və hərtərəfli azad ticarət məkanının (DCFTA) formalaşdırılması.

Assosiativ Saziş Gürcüstan üçün gələcəyə investisiya yatırımınınçox yaxşı bir imkanıdır. Nəticəsi davamlı inkişaf, yüksək insan hüquqları standartları, qanunun aliliyi, istehsalın və firavanlığın artımı, sosial ölçünün gücləndirilməsi, hər kəs üçün layiqli iş və məşğulluq, nəsillər (müasir nəslin məsuliyyətli və vicdanlı davranışı gələcək nəslinrifahı üçün) arasında konsolidasiya olan Gürcüstanın daxili islahatlarının həyata keçirilməsi üçün bir sənəddir. Nəsillərin rifahı üçün). **Bu nəticələrə nail olmaq üçün Assosiativ Sazişdə Gürcüstanın həyata keçirəcəyi öhdəliklər və yerinə yetirməli olduğu tarixlər müəyyən edilmişdir. Gürcüstan Avropa standartlarını milli qanunvericilikdə və təcrübədə əks etdirməlidir. Bu prosesə qanuni yaxınlaşma / qanuni aproksimasiya deyilir.**

Assosiativ Sazişin həcmi iridir, 1000-dən çox səhifədən ibarətdir. Assosiativ Sazişin əlavələrində Gürcüstanın yaxınlaşmalı olduğu 300-dən çox Avropa İttifaqı qanunlarının siyahısı verilmişdir. Gürcüstanın yaxınlaşması (aproksimasiyası) yalnız Gürcüstan xalqının və ölkəsinin xeyrinə həyata keçirilməlidir. Bu səbəbdən Avropa assosiativliyinin sağlam, effektli və faydalı nəticələrinin olub-olmaması sistematik olaraq yoxlanılmalıdır. Assosiativ Saziş tərəqqinin davamlı monitorinqini təmin edir. Bu monitorinqi Gürcüstan hökumətinin özü, Avropa İttifaqı və vətəndaş cəmiyyəti platforması (qeyri-hökumət sektoru, özəl sektor, ekspertlər) həyata keçirir.

DCFTA dərin və hərtərəfli azad ticarət məkanı haqqında sazişdir və Assosiativ Sazişin hissəsidir (özəlliklə də, IV hissə).Digər sözlərlə desək, DCFTA Gürcüstan istehsalının inkişafı və gücləndirilməsi imkanıdır, elə bir bazarın formalaşdırılması və yaradılması imkanıdır ki burada həm biznes maraqları, eləcə də ətraf mühitin maraqları və sosial maraqlar müdafiə olunacaqdır. **Avropa İttifaqı biznesin və insan tələbatlarının eyni şəkildə mühafizə olunduğu sabit və azad bazar yaradıb formalaşdırdı ki, burada iqtisadiyyat və ticarət insana xidmət edir və əksinə, insan öz qabiliyyətləri ilə, intellekti, təhsili və imkanları ilə iqtisadiyyatın başlıca təkanverici qüvvəsidir. Hər ikisi birlikdə idə kapitalı və firavanlığı yaradır, güclü dövləti və cəmiyyəti qurur. Bazarın belə bir modeli misilsizdir.**

DCFTA-ya əsasən, hər hansı bir sərmayəçi elə bir işi həyata keçirməlidir ki, bunda mühafizə olunacaqdır:

- Gürcüstanın təbiəti (su, hava, torpaq, bitkilər) və bu da Gürcüstan vətəndaşlarının həyat və sağlamlığının zəmanətidir;
- Səmərəli məşğulluq və dəyərli əmək prinsipi, bu da Gürcüstan vətəndaşlarına imkan verəcəkdir ki, peşəkar və şəxsi/ailə həyatını harmonik tarazlaşdırsınlar, gəlir əldə etsinlər və firavanlıqlarını artırsınlar;
- Sahibkarlığın azadlığı, bu da biznes üçün azad inkişaf və hərəkət şərtlərini yaradır ki, burada biznes Gürcüstan qanunvericiliyinin tələblərinə riayət etməklə və Gürcüstan əhalisinə və dövlət maraqlarına hörmət etməklə fəaliyyət göstərir və böyük biznes kiçik biznesi sıxışdırmır və burada bizneslərdən hər birinin eyni imkanı olacaqdır və dövlət bütün bizneslərə qarşı eyni və obyektiv təsir göstərəcək və dövlət kiçik və orta biznesə yardım edəcəkdir.

Eləcə də DCFTA Avropa İttifaqının daxili bazarında yalnız Gürcüstan mənşəli mal üçün gömrük güzəştinin təsis edilməsini nəzərdə tutur. Belə ki, Avropa İttifaqı Gürcüstana və gürcü biznesinə çox böyük motivasiya verir – milli sənayenin dirçəlişini-gücləndirilməsini təklif edir. Avropa İttifaqı yalnız gürcü mənşəli malı gömrük vergilərindən azad edir.

AVROPA İTTIFAQININ AZADLIQ, TƏHLÜKƏSİZLİK VƏ ƏDALƏT MƏKANI

Avropa İttifaqı öz vətəndaşlarına daxili sərhədlərsiz azad, təhlükəsiz və ədalətli məkanı təklif edir ki, burada insan sərbəst yerdəyişmə ilə təmin edilmişdir. Burada kriminala, irqçiliyə, ksenofobiyaya qarşı mübarizəninvə prevensiyanın müvafiq mexanizmləri ilə təhlükəsizliyin və müdafiənin yüksək səviyyəsi zəmin edilmiş və bu da üzv ölkələrin polisi və başqa səlahiyyətli orqanları arasında əməkdaşlıqla istiqamətləndirilmişdir.

2017-ci ildə Avropa İttifaqı Gürcüstan vətəndaşlarının Şengen bölgəsinə vizasız daxil olmasına və sərbəst yerdəyişməsinə icazə verən bir qanun qəbul etdi (180 gün ərzində 90 gün). Bu imkanın açıldığından sonra on minlərlə Gürcüstan vətəndaşı, heç bir viza və sərhəd keçid haqqı ödəmədən müxtəlif Şengen ölkələrinə sərbəst səyahət edə bildilər. Şengen ölkələrinə Gürcüstandan bir milyondan çox giriş qeydə alınıb. Xalqlar arasındakı əlaqələr dərinləşdi, müxtəlif ortaq fəaliyyətlərə başlanıldı. Gürcüstan vətəndaşları öz gözləri və qulaqları ilə bilir və görürlər ki, Avropa İttifaqındakı hər hansı bir insan qorunur, irqindən, dərisindən, dilindən və s. asılı olmayaraq hər kəsə hörmət edirlər.

AVROPA İTTIFAQINDA DILƏ HÖRMƏT

Avropa İttifaqı hər bir üzv dövlətin dilinə hörmətlə yanaşır. Bu səbəbdən Avropa İttifaqında 24 rəsmi və işçi dil mövcuddur. Bu, aşağıdakılar deməkdir: Avropa İttifaqı qanunlar, qərarlar qəbul edərkən bütün bunlar Avropa dillərinə tərcümə edilir və xalqa öz dövlət dilində çatdırılır.

Bu prinsip Assosiativ Sazişdə də öz əksini tapmışdır. Assosiativ Sazişə görə, hüquqi yaxınlaşma (aproksimasiya) zamanı Gürcüstan Avropa standartlarını dəqiq qəbul etmək, başa düşmək və milli qanuna düzgün daxil etmək üçün Avropa İttifaqının qanunvericiliyini tərcümə

etməlidir. Bundan əlavə, Avropa İttifaqı Gürcüstana xarici qanunvericiliyin gürcü dilinə tərcümə edilməsinə maliyyə yardımı göstərir.

Gürcüstan Hökumətinin 186 saylı Əmrinə əsasən, Avropa İttifaqı qanunvericiliyinin gürcü dilinə tərcüməsi Gürcüstan Ədliyyə Nazirliyinin İHHŞ – Qanunvericilik qurumu tərəfindən həyata keçirilməlidir.

Gürcüstanın Avropa İttifaqına üzv olduğu halda, Gürcüstanın dövlət dili Avropa İttifaqının rəsmi və işgüzar dili olacaqdır.

AVROPA İTTIFAQINDA AİLƏ VƏ NİKAH

Ailəni və ailənin birliyini qorumaq Avropa İttifaqında təməli dəyərlərin bir hissəsidir. Avropa İttifaqının Əsas Hüquqlar Xartiyasına görə:

- Hər kəsin məxfilik və ailə həyatını qorumaq hüququ var;
- Nikah və ailə qurmaq hüququ milli qanunvericiliklə təmin olunur;
- Ailə hüquqi, iqtisadi və sosial müdafiədən istifadə edir;
- Ailə və peşə həyatını uzlaşdırmaq məqsədilə, hər kəsin analıq və valideynlik və övladlığa götürmə məzuniyyəti zamanı işdən azad olunmamaq üçün müdafiə olunmaq hüququ vardır.

Avropa İttifaqının hər bir üzv dövləti, hər bir ölkənin konstitusiyasında öz əksini tapmış ailə haqqında özünün tarixi, mədəni, ənənəvi inanclarına və dünyagörüşünə malikdir. Məsələn, Latviya Avropa İttifaqının üzvüdür. Latviya konstitusiyasında deyilir: “Dövlət nikahı qoruyur və dəstəkləyir – kişi və qadının ittifaqını ...”. Polşa Avropa İttifaqının üzvüdür. Polşa Konstitusiyasında “evliliyin kişi ilə qadının arasındakı bir ittifaq olduğunu və ailənin, analığın və valideynliyin Polşa Respublikası tərəfindən müdafiəsini və himayəsini” bildirilir.

Yuxarıda qeyd edilən və başqa misallar sübut edirlər ki, Avropa İttifaqı ölkələrin nikaha və ailəyə aid olan identiklik və dünyagörüşü aspektlərinə müdaxilə etmir. Belə ki, Avropa İttifaqı Gürcüstandan ailəyə və nikaha qarşı münasibətini dəyişməyi heç vaxt tələb etməmiş və gələcəkdə də etməyəcəkdir.

AVROPA İTTIFAQININ GÜRCÜSTANA YARDIMLARI

Avropa İttifaqı Gürcüstana hər il ən azı 350 milyon lari ilə yardım göstərir və bu da müxtəlif sahələrə bölüşdürülür, o cümlədən iqtisadiyyatın və özəl sektorun dəstəkləndirilməsinə, kənd təsərrüfatına, təhsilə, ictimai inzibatiləşdirməyə, məhkəməyə, ətraf mühitə, nəqliyyata, mədəniyyətə.

Avropa İttifaqının yardımı ilə yeni sayt yaradıldı ki, burada 160-dan çox layihə təsvir edilmişdir və bunu da Avropa İttifaqının yardımı ilə hal-hazırda Gürcüstan həyata keçirir. Bu saytlardır:

https://eu4georgia.ge

https://eu4georgia.ge/ka

2017-2020-ci illər üçün Avropa İttifaqı tərəfindən Gürcüstana fərdi dəstək çərçivəsində (Single Support Framework)371 milyon avrodan 453 milyon avro miqdarına qədər maliyyə yardımı ayrılmışdır. Bu məbləğin 40% iqtisadi inkişaf və bazar imkanının artım layihələrinə yönlənmişdir; 20% - yaxşı idarəetmə və qurumçuluğun güclənmə layihələrinə; 15 % - enerji effektivliyi, ətraf mühit və iqlim dəyişkənliyi sahəsində layihələrə; 10 % - xalqlar arası əlaqənin dəstəkləndirilməsi və səfərbərlik layihələrinə; 5% - strateji komunnikasiyaya dəstək layihələrinə; 5% - vətəndaş sektorunun inkişafına dəstək layihələrinə; 5% - təsisatların quruculuğu və imkanların əlavə dəstəkləndirilməsi layihələrinə.

Sözügedəndən başqa, Gürcüstan Avropa İttifaqının regional və multi-dövlətlərin fəaliyyət proqramları fondunun benefisiarıdır. Eləcə də Gürcüstan Horizon 2020 (Horizon 2020), Erasmus + (Erasmus+) və Kreativ Avropa (Creative Europe) proqramları çərçivəsində yardımlar alır və dəstəkləndirilir.

Covid-19, pandemiya və fövqəladə hallar dövründə, Avropa İttifaqının özünün də böyük problemləri olduğunda, 1,5 milyard larini səfərbər edə bildi ki, Gürcüstana böhranı dəf etməkdə yardım göstərsin. Bu, Avropa İttifaqı tərəfindən Gürcüstana qarşı səhiyyə sahəsində mövcud problemlərlə ayaqlaşmaq və gələcək iqtisadi və sosial çağırışlarla mübarizə məqsədilə misilsiz bir dəstək idi.

ƏMƏK HÜQUQLARININ MÜDAFİƏSİNİN AVROPA STANDARTLARI VƏ ASSOSİATİV SAZİŞ

Avropa İttifaqının böyük səyləri və maliyyə yardımı nəticəsində, Gürcüstanda əməyin müfəttişliyi aləti formalaşdırıldı, bunun funksiyası da işlə təmin olunanların təhlükəsizliyinin monitorinqi və müdafiəsi idi.

Avropa İttifaqının dəfələrlə cəhdi nəticəsində, Gürcüstanın Əmək Məcəlləsinə dəyişikliklər daxil edildi, bunun nəticəsində də işlə təmin olunanların əmək hüquqlarının müdafiə standartı artdı.

Assosiativ Sazişə əsasən, Gürcüstan insanın əmək hüquqlarının müdafiəsinin yüksək standartını, məhsuldar və hər kəs üçün tam işlə təminat şərtlərini yaratmalıdır. Avropa İttifaqının əmək qanunvericiliyi və təcrübəsinə uyğun olaraq, insanın layiqli əməyi layiqli məişətin, layiqli yaşayış şərtlərinin, layiqli şəxsi və ailə həyatının təminatının zəmanətidir.

Gürcüstanda da çalışmaq istəyən hər bir vətəndaş özünü müdafiədə və layiqincə hiss etməlidir. Bu məqsədin əldə edilməsində də Avropa İttifaqınınn Gürcüstana yardımı külli miqdarda çoxdur.

Layiqli əmək şərtlərinin bərqərar olması məqsədilə, Gürcüstan Milli Qanunvericiliyində və təcrübəsində Avropa İttifaqının əmək qanunvericiliyinin həftə ərzində normalaşdırılmış iş vaxtı, iş saatlarından əlavə əmək limiti və ədalətli ödənişlə, istirahətlə, tənəffüslə, işçilərin işdə öz hüquqlarını qoruduqlarında sıxışdırılmaları qadağası, analıq məzuniyyətinin layiqli ödənişi, yetkinlik yaşına çatmayanın onun təhsilinə mane olmayan əmək hüquqlarının müdafiəsi, mənəvi, əxlaqi, fiziki inkişafla, işçinin fiziki təhlükəsizliyinin təmin edilməsi ilə, işçinin sağlamlığının həm işəgötürən, eləcə də dövlət tərəfindən monitorinqi ilə və s. ilə bağlı olan standartlarını əks etdirməlidir.

İş yerlərinin yaradılmasına gəldikdə isə, həm ticari-iqtisadi, eləcə də sosial siyasət sahəsində Avropa İnteqrasiyasının ən əsas məsələlərindən biridir. Bu məqsədlə, Avropa İttifaqı Gürcüstana kiçik və orta biznesə maliyyə və texniki cəhətdən yardım edir. Belə bir dəstəyin nəticəsində kiçik və orta biznes iş yerlərini yaradır. As-

sosiativ Sazişin 2019-cu il üzrə icraat məruzəsində qeyd edilir ki, 521 kiçik və orta biznesə göstərilən yardım nəticəsində (bu da "Gürcüstan üçün istehsal et" proqramı çərçivəsində həyata keçirildi) Gürcüstanda 18270-dən çox iş yeri yaradılmışdır.

AVROPA İTTIFAQININ DAXİLİ BAZARINDA GÜRCÜ MƏHSULU

Avropa İttifaqının bazarına Gürcüstan şərabı, pivə, limonad, mebel (heyvanlar üçün evlər), dəfnə, tibbi və müalicəvi bitkiləri, mineral su, meyvə şirəsi, cem, tərəvəz, giləmeyvə, sucuq (çurçxela), meyvə qurusu, çay, yun, inşaat materialları, aksessuarlar və s. çıxarılır.

Bəzi təcrübə:

Gürcüstan **fındıq** ixrac edən ən iri ölkələrin beşliyinə daxildir. Gürcüstan fındığının ən iri ixracat bazarı (bazarın 60%-i) Avropa ölkələrinə düşür. Gürcü fındığının 75%-dən çox ixracatı Qərbi Avropa ölkələrinə düşür. Avropa İttifaqı bazarlarında ən güclü rəqib ölkə Türkiyədir, amma gürcü fındığının üstünlüyü onun çox yağlılığı hesab oluna bilər ki, bu da Türkiyə fındığı növləri ilə müqayisədə 7-8% çoxdur.

Keçirilən tədqiqata əsasən, **kivinin** yetişdirilməsi üçün Yeni Zelandiyadan sonra ən yaxşı iqlim Gürcüstandadır. Özəlliklə də, Poti-Zuqdidi-Qali-Oçamçire ərazisindədir. Gürcüstan kivisinin əsas üstün cəhətlərindən biri şirinliyinin çox olmasıdır. İtaliya kivisinin şirinlik göstəricisi 13,9%-dir, halbuki Gürcüstan kivisinin şirinlik tərkibi 17,3%-i təşkil edir. Hal-hazırda, "Nerqeta" şirkəti Zuqdidi rayonunun İnqiri kəndində yetişdirilən kivini Avropa İttifaqında satır.

"Gürcüstan **göyərtisi** ilin ən yaxşı dövründə yetişir: sentyabrdan – may ayına qədər. Bu, Avropaya göyərti lazım olan bir dövrdür", - Bilancia Hollandiya şirkəti Avropa İttifaqında satış potensialını öyrəndikdən sonra Gürcüstan göyərtisini belə qiymətləndirdi.

İmeretinin 1000-ə qədər parnik təsərrüfatında 550 kiçik sahibkar və 10 iri şirkət ildə təxminən 25 000 ton göyərti yetişdirir.

Yun Avropa İttifaqının eksporta buraxdığı heyvan mənşəli ilk məhsuldur. Avropa İttifaqı yun istehsalçısı olan 2 şirkəti tanımışdır: "Georgian wool" MMC və "Gürcüstanın Yun Şirkəti" MMC.

Gürcüstan **balı** bənzərsiz ətri və dadı ilə seçilir, buna görə də müxtəlif beynəxalq sərgilərdə hər zaman yüksək qiymətləndirməyə layiq görülür. Bal ikinci heyvan mənşəli məhsuldur ki, hansı üçün Avropa İttifaqının bazarı tam açıqdır.

Avropa İttifaqının daxili bazarı böyükdür və çoxlu miqdarda məhsul tələb edir. Buna görə də, Gürcüstanda istehsalçılar kooperativlər yaratmalıdırlar – səylərini, kapitalı və resurslarını birləşdirməlidirlər. Belə bir birləşmələrin yaradılması da Avropa İttifaqı tərəfindən dəstəkləndirilir: Məs., Gürcüstan Hökuməti, Avropa İttifaqının yardımı ilə, Fermerlər Kooperasiyasının Avropa təcrübəsini tətbiq etməyə başladı. Hal-hazırda, ölkədə 1500-dən çox kənd təsərrüfatı kooperativi qeydiyyatdan keçmişdir ki, bu da 13,000-dən çox fermeri özündə birləşdirir. Avropa İttifaqı 2000-dən çox fermeri özündə birləşdirən 200-dən çox kooperativə birbaşa qrant yardımını göstərdi. Avropa İttifaqının maliyyə dəstəyi ilə 7200-dən çox fermer ixtisaslaşdırıldı.

ƏRZAĞIN ZƏRƏRSİZLİYİ VƏ ƏRZAĞIN TƏHLÜKƏSİZLİYİ -İNSAN HƏYATI VƏ SAĞLAMLIĞININ MÜDAFİƏSİ

Gürcüstanda istehsal edilən ərzağın və məhsulun Avropa İttifaqı bazarında satılması üçün zərərsizlik və təhlükəsizlik standartına cavab verə bilməlidir. Avropa İttifaqında insan ən yüksək və ali xeyirxahlıqdır və hər şey onun firavanlığına xidmət göstərməlidir, o cümlədən də biznes. Belə ki, məhsulun zərərsizliyinin yoxlanılması insanın həyatı və sağlamlığının təhlükəsizliyini bildirir.

Məhsulun zərərsizliyi suyun və torpağın sağlamlığından, bitki və heyvanın fitosanitar və gigiyena normalarından, məhsulun hazırlan-

ma texnologiyalarının kamilliyindən və təmizlikdən asılıdır. Buna görə də istehsal prosesinin "fermadan masaya qədər" hər bir seqmenti yoxlanılır. Məsələn, ətin zərərsiz olması üçün heyvanın tövləsi təmiz olmalı, heyvana sağlam qida verilməli, heyvan üzərində baytarlıq nəzarəti keçirilməlidir (hansı xəstəlikləri keçirmiş, hansı dərmanları verirlər), heyvanın kəsilməsi, saxlanılması və qablaşdırılması və s. təyin edilmiş qayda ilə həyata keçirilməlidir.

Zərərsizliyin və təhlükəsizliyin təmin edilməsi üçün Gürcüstan hökuməti qərarlar qəbul edir. Məsələn:

- Heyvanların eyniləşdirilməsi-qeydiyyatı və onların tövlələrinin/müvəqqəti tövlələrinin qeydiyyat qaydalarının təsdiq edilməsi haqqında Gürcüstan Hökumətinin 2019-cu il 3 oktyabr №483 qərarı;
- Kartofun dairəvi xarab olması prosedurlarının təsdiqlənməsi haqqında, Gürcüstan Hökumətinin 2017-ci il 15 dekabr № 553 qərarı;
- Və s.

Zərərsizlik standartlarının bərqərar edilməsi – onu bildirir ki, hər hansı bir fermer və istehsalçı nəinki iqtisadi mənfəət barədə, eləcə də insanın yaxşı məişəti haqqında düşünməlidir. **Bu, təkcə insanaqayğı deyil, eləcə də istehsalçının, fermerin adı, şöhrəti və ləyaqət məsələsidir. Avropa standartı belədir.**

Bəziləri deyir ki, təhlükəsiz və zərərsiz məhsul və ərzaq Gürcüstanda ona görə hazırlanmalıdır ki, Avropa İttifaqı bazarında satılsın. Bu, doğru deyil. Gürcüstanda zərərsiz məhsul ona görə hazırlanmalıdır ki, Gürcüstanda da, Avropa İttifaqında da və başqa ölkələrdə nə Gürcüstan vətəndaşına və nə də ki, xarici vətəndaşa ziyan yetirilməyən mal satılsın.

Gürcüstanda istehsal edilən məhsulun sağlam və zərərsiz olması üçün müxtəlif məhsulların araşdırılması və yoxlanılması üçün laboratoriyalar lazımdır. Avropa İttifaqı bu işdə də Gürcüstana yardım edir. Hal-hazırda Gürcüstanda laboratoriya şəbəkəsi fəaliyyət göstərir və bu da İHHŞ Kənd Təsərrüfatı Dövlət Laboratoriyasını, özəlliklə də

- onun nəzdində olan 3 zonal diaqnostik laboratoriyadan (Tbilisi, Kutaisi, Axalsixe) və 8 regional laboratoriyadan (Qori, Marneuli, Duşeti, Qurcaani, Ambrolauri, Ozurqeti, Zuqdidi, Batumi) ibarətdir. Laboratoriyalar nəinki zərərsizlik standartının təyin edilməsinə və saxlanılmasına dəstək verirlər, eləcə də iş yerlərini açırlar.

İSTEHLAKÇILARIN HÜQUQLARININ MÜDAFİƏSİ

Assosiativ Sazişə əsasən, istehlakçı hüquqlarının yüksək səviyyədə müdafiəsi təmin edilməlidir. İstehlakçı hüquqları insan hüquqlarının vacib bir hissəsidir. Məmnun müştəri biznesin və istehsalın rəqabətə davamlı olması və müştəri tələblərinə uyğun hərəkət etməsi deməkdir.

Müştərilər seçim imkanları olduğunda, qiymətlər əlverişli, məhsul və xidmətlər keyfiyyətli, məlumatlı (yalan söylənilməyəndə), onlara hörmətlə yanaşıldığında məmnun qalırlar. Avropa İttifaqında istehlakçı hüquqlarının qorunmasına böyük diqqət yetirilir. Bu məqsədlə qanunlar qəbul edilmiş və müxtəlif qoruma mexanizmləri yaradılmışdır.

Avropadakı inteqrasiya siyasətinin təsiri ilə Gürcüstanda istehlakçı müdafiəsinin bəzi aspektləri müsbət təcrübələrə çevrildi. Məsələn, mağaza paltarları (dəyişdirmək üçün) və ya xarab malları geri qaytarır.

BƏRABƏRLİK SİYASƏTİ VƏ DİSKRİMİNASİYAYA QARŞI MÜBARİZƏ

Avropa İnteqrasiya Siyasəti çərçivəsində, 2015-ci ildə Gürcüstan Parlamenti ayrı-seçkiliyə qarşı bütün formaların ləğvi haqqında Qanun qəbul etdi. Qanun, əmək münasibətləri, təhsil, din, dil, milliyət, mülkiyyət vəziyyəti, ailə vəziyyəti, dərinin rəngi, cinsi və ya digər münasibətlər şəklində ayrı-seçkiliyin aradan qaldırılması üçün anlayışları və mexanizmləri müəyyənləşdirir.

Həm sıxışdırılma, eləcə də fərqli rəftar diskriminasiyakimi qəbul edilir. Sıxışdırmahər hansı bir əsasla insanın təqib edilməsi, məcbur edilməsi və ya insana qarşı xoşagəlməz davranışdır ki, bunun məqsədi də insanın ləyaqətinin alçaldılması və onun üçün qorxuducu, düşməncəsinə, alçaldıcı, ləyaqətini alçaldan və təhqiramiz mühitin yaradılmasıdır. **Fərqli yanaşma** şəxsə qarşı həyata keçirilən elə bir hərəkətdir ki, bu da başqa analoji vəziyyətdə olan şəxslə müqayisədə onun vəziyyətini pisləşdirir.

Fərqli yanaşma hər zaman ayrı-seçkiliyi bildirmir. Ətrafımızda elə bir insanlar yaşayırlar ki, güclənməyə, dəstəyə, imkanlarında bərabərləşməyə ehtiyac duyurlar. Buna görə də hamilə qadına, məhdud imkanlı şəxsə, etnik azlıqlara və s. fərqli yanaşılırsa və ya dəstək verilirsə, bu hal ayrı-seçkilik hesab edilmir. **Amma bu cür fərqli yanaşma düşünülmüş, zəruri, mütənasib, legitim məqsədin əldə edilməsi üçün zəruri, demokratik cəmiyyətin formalaşması üçün lazımi, əxlaqi və mənəvi olmalıdır.**

İstifadə edilən qaynaqlar

Gürcüstan Konstitusiyası, https://matsne.gov.ge/ka/document/view/30346?publication=35

Assosiativlik haqqında Saziş, bir tərəfdən, Gürcüstan və digər tərəfdən, Avropa İttifaqı və Avropa Atom Enerjisi Birliyi və onlara üzv dövlətlər arasında (Assosiativ Saziş) https://matsne.gov.ge/document/view/2496959

“Diskriminasiyanın hər növdə formasının qarşısının alınması haqqında” Gürcüstan Qanunu https://matsne.gov.ge/document/view/2339687?publication=1

2019-2022 illər üzrə Gürcüstanın Xarici Siyasət Strtegiyası,https://mfa.gov.ge/getattachment/MainNav/ForeignPolicy/ForeignPolicyStrategy/2019-2022-clebis-saqartvelos-sagareo-politikis-strategia.pdf.aspx

Gürcüstanın Milli Təhlükəsizlik Konsepsiyası, https://mod.gov.ge/uploads/2018/pdf/NSC-GEO.pdf

Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş, https://matsne.gov.ge/ka/document/view/1212956?publication=0

Gürcüstan Hökumətinin SərəncamıN765, 2017-ci il 13 aprel, Avropa İttifaqı və NATO-ya Gürcüstanın üzvlüyü kommunikasiyası haqqında Gürcüstan Hökuməti Strategiyasının 2017-2020-ci illər üçün təsdiqlənməsi barədə,https://matsne.gov.ge/ka/document/view/3650131?publication=0

Gürcüstan Hökumətinin QərarıN533, 2017 il 7 dekabr, „Gürcüstanın Təhsili və Elminin Vahid Strategiyası 2017-2021-ci il" təsdiqlənməsi haqqında, Əlavə 1,https://matsne.gov.ge/document/view/3924876?publication=0

Gürcüstan Hökumətinin Sərəncamı N186, 2014 il 7 fevral, Gürcüstan və Avropa İttifaqı arasında dərin və hərtərəfli azad ticarət məkanı haqqında Sazişineffektiv həyata keçirilməsi məqsədilə keçiriləsi tədbirlər haqqında, https://matsne.gov.ge/ka/document/view/2250269?publication=0

Avropa İttifaqının Təməli Hüquqlar Xartiyası,https://www.europarl.europa.eu/charter/pdf/text_en.pdf

Avropa İttifaqı Gürcüstan üçün, ENPARD, məlumat bülleteni, http://enpard.ge/ge/newsletters/newsletter01/

Gürcüstanın Qanunvericilik qurumu,www.matsne.gov.ge

http://eugeorgia.info/ka/

dcfta.gov.ge

https://eu4georgia.ge/

Zurab Braqvadze

AVROPA KONTEKSTİNDƏ GÜRCÜSTANIN MƏDƏNİ İRSİ

Mədəni irsə qulluq, sahib durma və gələcək nəsillər üçün qoruyub saxlamaq hər bir Gürcüstan vətəndaşının ən müqəddəs borclarından biridir. Gürcüstan Konstitusiyasının V maddəsinin VI bəndinə əsasən, "Dövlət milli dəyərlərin və varlığın, mədəni irsin mühafizəsinə, təhsilin, elmin və mədəniyyətin inkişafına qayğı göstərir", Konstitusiyanın XX maddəsinin IV bəndi isə bildirir ki, "Hər kəsin mədəni irsin müdafiəsinə qayğı göstərmək hüququ var. Mədəni irs qanunla qorunur"[2]. Mədəni irsi Gürcüstan Parlamenti tərəfindən 2007-ci ildən qəbul edilən „Mədəni irs haqqında"[3] Qanun qoruyur.

2014-cü ildə Avropa İttifaqı və Gürcüstan arasında Assosiativ Saziş bağlanıldığından sonra mədəni irsin müdafiə siyasətinin və qanunvericiliyin ümumi Avropa məkanı ilə yaxınlaşması Gürcüstan üçün çox mühüm məsələni təqdim edir və bu da öz növbəsində, sahənin inkişafı və gələcək perspektivlərdə öz xeyrini əks etdirməlidir. Bu nöqteyi-nəzərdən, qeyd edilən sazişin təhsil və elm sahəsində hansı perspektivləri nəzərə aldığını bilməyimiz maraqlıdır.[4]

Assosiativ Sazişi təhsil və elm sahəsində Gürcüstanın Avropa İttifaqının siyasəti və təcrübəsi ilə yaxınlaşmasını nəzərdə tutur. Xüsusi diqqət ali təhsilə yetirilir. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi Avropa İttifaqının "Ali təhsilin modernləşdirilməsi gündəliyinə" (Modernisation Agienda For Higher Edutsion) və Boloniya prosesinə uyğun gəlməlidir.Akademik sahədə əməkdaşlıq güclənir və bu da həm Avropa İttifaqının üzv ölkələri və Gürcüstanın təhsil müəssisələri arasında qurumsal əməkdaşlığı, eləcə də kurrikulumların işlənib hazırlanması, universitetlərin infrastruk-

2 https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

3 https://matsne.gov.ge/ka/document/view/21076?publication=14

4 4http://www.parliament.ge/ge/gavigot-meti-evrokavshirtan-asocirebis-shetanxmebis-shesaxeb/associationagreement1

turunun yaxşılaşdırılması, inzibatiləşdirmənin yeni metodlarının tətbiqi və sairə məsələlərdə Avropa təcrübəsi ilə paylaşmanı, həmçinin tələbələrin və universitetlərin akademik və inzibati personalının mübadilə proqramlarının artırılması və tərəfdaş ölkələrin birgə magistr dərəcəsi proqramlarının tam mərhələsində iştirakını nəzərdə tutur. Müvafiq olaraq,gürcü tələbələri üçün Avropa təqaüd və mübadilə proqramlarında iştirak yolu ilə keyfiyyətli Avropa təhsilinin imkanıartır və bu da Gürcüstanın Avropa təhsil və elm məkanına inteqrasiyasına dəstək verir. Bununla belə, Saziş gürcü alimləri üçün tərəfdaş ölkələrin müvafiq proqramlarını əlçatan edir, gürcü tədqiqatçılarının Avropa İttifaqının çərçivə-tədqiqat proqramına cəlb olunmasını artırır, ortaq layihələrin həyata keçirilməsinə, tədqiqatçıların mübadiləsinə və sairəyə dəstək verir. Eləcə də Saziş ömür boyu təlim-tədrisin həvəsləndirilməsini və peşəkar təhsil və peşəkar sahələrin inkişafı məqsədilə əməkdaşlığı nəzərdə tutur ki, bu da işlə təmin olunma probleminin həllinə dəstək verir.

Əlbəttə ki, burada mədəni irs nəzərdə tutulur, həm mədəni irs sahəsində Avropa təhsilinin alınması imkanı, eləcə də Gürcüstan mədəni irsinin müdafiəsinin, elmi təlim və ümumi menecmentin ümumi Avropa məkanı ilə yaxınlığı nəzərə alınır. Buradaca həmin reallıq qeydə alınmalıdır ki, Gürcüstan Avropa İttifaqı ilə assosiativlik müqaviləsinə qədər mədəni irs sahəsinə, həm qanunvericilik bazasının, eləcə də praktiki fəallığın Avropa Beynəlxalq Konvensiyası ilə müvafiqliyə gətirilməsinə qayğı göstərməyə başladı.

Beynəxalq Konvensiyalarla münasibətdə Gürcüstan tərəfindən üzərinə götürdüyü öhdəlik nəzərdə tutur ki, mədəni irs gələcək nəsillərə ilkin vəziyyətində, insanların yaddaşlarının başlıca hissəsi kimi tam rəngarəngliyi ilə ötürülsün, çünki əks halda insanın davamlı inkişafa sahib olduğu şüuru itir. Avropa sivil dünyası cəmiyyətin əsas problemi olaraq mədəni irsə xüsusi əhəmiyyət verir və onu hər bir ölkənin təməli dəyəri hesab edir.

Gürcüstan mədəniyyətinin Avropa mədəniyyət məkanına inteqrasiyasının sürətləndirlməsi və dünyanın mədəni xəzinələrində gürcü abidələrinin uyğun bir yer tutması üçün, milli mədəni irsi dəyərlərimizin mühafizəsi demokratik Gürcüstan dövlətinin quruculuğunun prioritet istiqamətlərindən biri olmalıdır. Bu, həm beynəlx-

alq, həm də Avropa konvensiyalarının və bütövlükdə, Gürcüstanın mədəni irsinin qorunması, öyrənilməsi və tədqiqi sahəsində Avropa İttifaqınınəsas tələbidir.

Bu baxımdan, Gürcüstan dövlətinin 1992-ci ildə"Arxeoloji İrsin Qorunması üzrə La Valletta Avropa Konvensiyasına" qoşulması böyük əhəmiyyət kəsb edirdi, çünki hal-hazırda mədəni irs sahəsində baş verən mürəkkəb proseslərin tənzimlənməsində böyük əhəmiyyət daşıyır. Konvensiyanın tələblərinin praktiki tətbiqi mövcud mirasın yenidən öyrənilməsinə, qorunmasına və populyarlaşdırılmasına əhəmiyyətli dərəcədə kömək edir. Konvensiyanın nəzərdə tutduğu texniki və elmi qarşılıqlı yardım təcrübə mübadiləsinə dəstək verir. Konvensiya şəhərsalma və köhnə şəhərlərdə tarixi yerlərin qorunması ilə birbaşa əlaqəli şəhərsalma sahəsindəki ən ağrılı problemləri nəzərdə tutur; prioritetləri düzgün və obyektiv təyin etmək üçün ölkənin mərkəzi hökuməti və özünüidarə orqanları üçün bu sahədə beynəlxalq hüquq normalarını müəyyənləşdirir. Konvensiyanın məqsədi mədəni və arxeoloji irsi qorumaq olduğundan, onu təsdiq etmiş ölkələrdən arxeoloji irsin qeydiyyatı, tarixi abidələrin və zonaların təsnifatı və arxeoloji qoruqların yaradılması üçün müvafiq hüquqi bazanın yaradılması tələb olunur. Qazıntıların və digər arxeoloji fəaliyyətlərin qanuniliyi və nəzarəti üzv dövlətlər tərəfindən təmin edilməlidir. Həm də qazıntıların təhlükəsizliyi və onların ixtisaslı mütəxəssislər tərəfindən aparılması təmin edilməlidir.

"La Valletta Konvensiyasına" paralel olaraq, Gürcüstan arxeoloji irsin qorunması üçün hüquqi prosedurları formalaşdıran"Avropa Memarlıq İrsinin Mühafizəsi üzrə Qranada Konvensiyasına" qoşuldu. Konvensiyaya əsasən, hər bir iştirakçı dövlət, eyni zamanda, hər bir dövlətin və bölgənin xüsusiyyətlərini nəzərə alan müvafiq nəzarət və səlahiyyət dairəsi çərçivəsində qanunla müəyyən edilmiş tədbirləri həyata keçirməyə borcludur. Bununla abidələrin, tikililərin və memarlıq baxımından əhəmiyyətli yerlərin hər növ zərərli təsirlərdən qorunması təmin edilməlidir. "Qranada" Konvensiyası üzv dövlətləri tarixi binaların sökülməsinin, yeni binaların tikilməsinin və ya tarixi binaların ümumi görünüşünə zərər verəcək dəyişikliklərin qarşısını

almaq üçün qanunvericilik prosedurlarını işləyib hazırlamağa çağırır.[5]

Sözügedən beynəlxalq konvensiyalara görə, tarixi yerlər və onların ətrafındakı ərazilər Dünya İrsinin ayrılmaz hissəsi hesab edilməlidir. Hər bir dövlət bu cür irsi qorumağa və onu müasir ictimai həyatın bir hissəsinə çevirməyə borcludur. Hər bir tarixi yer və ətrafdakı ərazi vahid bir kontekstdə qəbul edilməlidir. Müvafiq olaraq, harmoniya və estetik tərəfə böyük diqqət yetirilməlidir. Hər bir binanı xüsusi edən və tarixi xarakterini qoruyan bir qrup bina komponentlərinin oxşarlığı, əlaqəsi və ya ziddiyyəti qorunmalıdır. Tarixi yerlər və onların ətraf ərazilər hər cür zədələnmədən, xüsusən də uyğunsuz istifadədən, dəyişikliklərdən vəçirklənmənin səbəb olduğu zərərlərdən qorunmalıdır. Eyni zamanda, müasir şəhərsalmadan, miqyaslarınmisilsiz böyüməsi və binaların sıxlığından irəli gələrək, tarixi yerlərin məhv olma təhlükəsi yaranır və onların görünüşünün pozulması təhlükəsini daşıyır. Bu səbəbdən memarlar və şəhər planlaşdırma xidmətlərinin vəzifəsi abidələringörünüşününeybəcər şəklə salınmasına yol verməməkdir.

Mülki Hüquqi Birliyin beynəlxalq qurumunun (İunidroit) dəstəyi ilə, 1995-ci ilin iyunun 24-də, Romada ölkənin nümayəndələri "Oğurlanmış və ya qanunsuz çıxarılmış mədəni əşyalar haqında konvensiya"-nı qəbul etdilər. Bu Konvensiyaya əsasən, ölkə ərazisindən mədəni dəyərlərin qanunsuz çıxarıldığı halda, müəyyən sanksiyalar nəzərə alınmışdır. Zərərçəkmiş tərəf kimi nəinki əşya sahibi və ya dövlət, eləcə də oğurlanmış və ya qanunsuz ixrac edilmiş əşyanın yeni sahibi də hesab edilir, hansı ki, bu əşyanı qanuni yolla əldə etmiş və onun mədəni dəyəri haqqında heç nə bilmirdi. Əşyanın müsadirə olunduğu halda, onun təzminat almaq hüququ var.[6]

Gürcüstanın mədəni irsinin müdafiəsi sahəsində Avropa İttifaqının rolu təkcə Gürcüstanın Avropa Konvensiyalarına nəzəri və hüquqi yardımı ilə birləşməsi ilə kifayətlənmir. Həm maliyyə, eləcə də ölkəmizin irsi qarşısında çağırışlarla ayaqlaşmaqda Avropa mütəxəssislərinin aktiv cəlb olunmasını və praktiki dəstəyini nəzərdə tutan konkret addımlar atıldı. Məhz Avropa mütəxəssislərinin yardımı və

5 http://www.parliament.ge/files/714_9879_341434_kulturuli_memkvid_dacva.pdf

6 http://www.parliament.ge/files/714_9879_341434_kulturuli_memkvid_dacva.pdf

cəlb olunması ilə Gürcüstanın Mədəni İrsi Abidələrinin ilkin qeydəalınması və ya pasportlarının nümunələri işlənib hazırlandı və bunlar da Avropa İttifaqı dövlətlərinin (İtaliya, Fransa, İspaniya, Xorvatiya) bu işdə təcrübəsinə söykənir və hal-hazırda, Gürcüstanın mədəni irsinin qeydəalınması Avropa İttifaqı standartlarına tam uyğundur.

Norveç dövlətinin maliyyə dəstəyi ilə, Gürcüstanın Mədəni İrsinin Müdafiəsi Milli Agentliyi Gürcüstan Mədəni irsinin QİS portalını yaratmaqla, yüzilliyin layihəsini həyata keçirdi. Portal vahid kompleksli sistemi təqdim edir və ölkənin mədəni irsinin daşınan və daşınmaz abidə və obyektləri haqqında məlumatdan ibarətdir. Portal vasitəsilə hər kəs həm mədəni dəyərlər haqqında, eləcə də irsin mühafizə zonaları, divar rəssamlığı, daş üzərində işləmə, muzeylər və muzey-qoruqlarda mühafizə olunan artefaktlar haqqında haqqında ətraflı məlumat əldə edə bilər. Burada Gürcüstanın mədəni irsinin məlumatlar bazaları, arxiv məlumatları, konkret aabidələrin memarlıq cizgiləri, foto-material, biblioqrafiya və s. birləşmişdir. QİS portalı imkan verir ki, mədəni irsin abidələri haqqında məlumat dünyanın istənilən bölgəsindən interaktiv rejimdə doldurulsun və yeniləşdirilsin.[7]

Əlbəttə ki, XXI əsrdə belə bir portalın fəaliyyəti önəmli və lazımlıdır, Avropanın bir çox ölkələri (o cümlədən Avropa İttifaqı) oxşar seqmentlə öyünə bilməz.Amma Avropa İttifaqının dəstəyi təkcə bu faktlarla kifayətlənmir. Avropa mütəxəssislərinin aktiv cəlb olunması ilə Vardziyanın bənzərsiz freskalarının, Msxeta Xaç kilsəsinin, Gelatinin, Dzalisinin təkrarsız antik mozaikasının və başqa bir çox mühüm irsi abidənin restavrasiya prosesi həyata keçirildi.

Avropa (alman, ingilis, polyak, ispan) arxeoloqları uzun illərdir ki, Gürcüstanın Nokalakevi, Qonio, Kutaisi, Kobulet-Pitçvnari, Nazarlebi, Natsari təpəsi, Çariça təpəsi, Xram təpəsi, Dmanisi, Aruxlo və Saxdrisi kimi vacib arxeoloji abidələrinin tədqiqatı-araşdırılmasına cəlb olunmuşlar. Bütövlükdə, bu abidələrin səyyar işlərinə və elmi nəşrlərə Avropa İttifaqı tərəfindən 1 milyondan çox avro xərclənmişdir.

Gürcüstanın mədəni irsinin elmi araşdırmasında Gürcüstanın Şota Rustaveli adına Milli Elmi Fondunun və İtaliya Tədqiqatlar Şurasının

7 http://memkvidreoba.gov.ge/

(CNR) birgə elmi qrant proqramının işi çox səmərəlidir. Proqram gürcü və italyan alimlərinin mədəni irsin müxtəlif istiqamətlərində (arxeologiya, etnoqrafiya, incəsənət tarixi) müştərək elmi vorkşopların, elmi konfransların və birgə nəşrlər baxımından kooperasiyasına və əməkdaşlığına dəstək verir.

Gürcüstanın müxtəlif universitetləri də Avropa İttifaqı ölkələrinin ayrı-ayrı təhsil və elmi mərkəzləri ilə tələbələrin mübadiləsindən başlamış, uzunmüddətli elmi ezamiyyətlər daxil olmaqla aktiv əməkdaşlıq edirlər. Bu cəhətdən Tbilisi İvane Cavaxişvili adına Dövlət Universiteti və Venesiya Ka Foskar Universitetinin əməkdaşlığı xüsusilə qeyd edilməlidir.

Son illər ərzində çoxsaylı gürcü gəncləri sözügedən universitetlərdə magistr, doktor və ya post-doktorluq kurslarını keçmiş və magistr və doktor dərəcələrini müdafiə etmişlər. Artıq bir neçə ildir ki, Suxumi Dövlət Universiteti Almaniyanın Vitenberg universiteti ilə səmərəli əməkdaşlıq edir. Sözügedən universitetin bir neçə məzunu doktorluq proqramını məhz bu universitetdə keçmiş və məhz burada doktor akademik dərəcəsini götürmüşdür. Onu da qeyd etmək lazımdır ki, həm Venesiya, eləcə də Vitenberq universitetlərinin halında, gürcü tələbələri Gürcüstanın mədəni irs abidələrinin ayrı-ayrı problemləri üzərində işləyir, öyrənir, araşdırır və akademik dərəcələrini müdafiə edirdilər (Kür-Araz, Trialeti, Bürünc Dövrü və ya Kolxeti mədəniyyəti məsələləri üzrə).

Avropa İttifaqının müxtəlif universitetləri və ya elmi mərkəzləri Gürcüstanın mədəni irsi abidələri haqqında gürcü alimlərinin əsərlərini (ingilis, alman, fransız, italyan, ispan dillərinə) aktiv şəkildə dərc edirlər ki, onlar bütün dünya üçün əlçatan olsunlar. Qeyd etmək lazımdır ki, gürcü müəlliflərinin nəşrləri bu universitetlərin və ya elmi mərkəzlərin xərci hesabına həyata keçirilir və Avropa İttifaqı dövlətləri tərəfindən gürcü mədəni irsi elmi tədqiqatları və nəşrlərinə on minlərlə avro xərclənmişdir. Buradaca onu da qeyd etmək lazımdır ki, bu tipdə tədqiqatlar Avropa elminin Gürcüstanın mədəni irsinin elmi araşdırılması prosesinə cəlb olunmasına və Gürcüstan irsinin Avropa İttifaqında, ümumiyyətlə, dünya miqyasında populyarizasiyasına dəstək verir. Gürcüstanın mədəni irsinin populyarizasiyası işində xüsusi rol Gürcüstanın Milli Muzeyinə verilir. Muzeyin Avropa İttifaqının

“Luvr”, “Prado”, “Perqamon muzeyi”, “Kapitolium” kimi top muzeyləri ilə və Avropanın aparıcı muzeyləri ilə əməkdaşlıq əlaqələri var.

Bunun sübutu həmin muzeylərdə Kolxeti zərgərlik sənəti, Gürcüstanın qədim metallurgiyası, Pirosmanininşah əsərləri və s. kimi mühüm milli irsi abidələrin sərgisinin olmasıdır. Onu da qeyd etmək lazımdır ki, bəzi Avropa muzeyləri öz kolleksiyalarının sərgilərini Gürcüstanda da keçirirlər və son on ildə gürcü sənətsevərlərinin ən böyük İtalyan İntibahının və ya müasir sənətkarlarının şah əsərlərini Gürcüstanda seyr etmələri son dərəcə səmərəli olmuşdur. Bu əməkdaşlıq uğurla davam edir və gələcəkdə Avropa İttifaqının məşhur muzeylərində bir sıra Gürcüstan sərgiləri keçiriləcək və gürcü tamaşaçılarıdünyanın bir çox şah əsərlərini Gürcüstanda görəcəklər.

Avropalı mütəxəssislərin Gürcüstanda milli və dini azlıqların irsinin bərpa-restavrasiya işində fəal iştirak etdiklərini və bu baxımdan Tbilisidəki Müqəddəs Qriqori (Surb Gevork) erməni kilsəsinin freskalarının bərpasında italyan restavratorlarının iştiraklarının bariz nümunə olduğunu da qeyd etmək lazımdır.

Gürcüstanın inkişaf yolunun Avropa seçimi olduğu mədəni irsin nümunəsində dəözünü yaxşı göstərir. Başqa bir çox konkret nümunə də gətirilə bilərdi, ancaq yuxarıdakıların hamısının Avropanın gürcü xalqını qorumaq və əsrlər boyu yaratdığı böyük mədəniyyəti - Avropa mədəni irsinin ayrılmaz bir hissəsini gələcək nəsillərə ötürmək üçün necə çalışdığını bizə kifayət qədər göstərəcəyini düşünürük.

İstifadə edilən qaynaqlar:

http://www.parliament.ge/ge/gavigot-meti-evrokavshirtan-asocirebis-shetanxmebis-shesaxeb/associationagreement1

https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

https://matsne.gov.ge/ka/document/view/21076?publication=14

http://www.parliament.ge/files/714_9879_341434_kulturuli_memkvid_dacva.pdf

http://memkvidreoba.gov.ge/

ISBN: 978-9941-9702-7-6